BƏXTİYAR VAHABZADƏ

# Mənim dostlarım

BAKI — AZƏRNƏŞR — 1949

Azərbaycan Respublikası
Mədəniyyət Nazirliyi

AZƏRBAYCAN
MİLLİ
KİTABXANASI

*Görkəmli şairin ilk kitabı*

## Bəxtiyar Vahabzadə

# Mənim dostlarım

## (Azərbaycan Milli Kitabxanasının Qızıl fondundan)

**BAKI – 2025**

**UOT: 016:82.09-05(479.24)**
**КВТ: Я19:Ш5(2=Аз)7-8я1**

**Layihənin rəhbəri:** **KərimTahirov,**
professor,
Əməkdar mədəniyyət işçisi

**Vahabzadə, B.** Mənim dostlarım / Bəxtiyar Vahabzadə; layihənin rəhbəri K.Tahirov;– Bakı, 2025. –148 səh.

ISBN 978-9952-593-30–3

© Azərbaycan Milli Kitabxanası, 2025

## Kitabın içindəkilər


Mənim dostlarım ........................................................ 5
Yaşıl çəmən, ağac altı, bir də ki, tünd çay ............ 8
Mirvari ......................................................................... 11
Xatirələr ...................................................................... 13
Sabahınız xeyir olsun ................................................. 15
Təzə şəhər .................................................................... 17
Sənin tikdiyin evdə ..................................................... 19
Ağ saçlar ...................................................................... 21
Könül baharı ................................................................ 23
Məktəb şeirləri (İlk cığır) ........................................... 25
Qızıl medal .................................................................. 26
İlk dərs .......................................................................... 27
Məktəb yolları ............................................................. 30
Toxucu qız .................................................................... 32

## Layihəyə "Ön söz"

M.F.Axundov adına Azərbaycan Milli Kitabxanası son 20 il ərzində Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyi ilə birgə bir sıra əhəmiyyətli layihələr həyata keçirib. Bu layihələrin əksəriyyəti uzun illərdən bəri kitabxananın Arxiv fondunda mühafizə olunan qiymətli nəşrlərin bu günün oxucularına daha yaxından tanıdılmasına ünvanlanıb. Azərbaycanın görkəmli elm və mədəniyyət xadimlərinə həsr olunan materialları əhatə edən "Azərbaycanın görkəmli şəxsiyyətləri" seriyası, ötən əsrlərdə çap olunan və bu gün demək olar ki, yalnız Milli Kitabxananın fondunda olan və oxucuların çox böyük ehtiyac duyduğu əsərlərin yenidən nəşrini nəzərdə tutan "Bərpanəşr", Azərbaycan bəstəkarlarının XX əsrdə Bakıda və Moskvada çap olunan not məcmuələrinin "Milli Musiqi xəzinəmizdən (Azərbaycan Milli Kitabxanasının fondundan)" layihələri bu qəbildəndir.

Milli Kitabxananın Arxiv fondunda Azərbaycanın görkəmli yazıçı və şairlərinin XIX, XX əsrlərdə çap olunan ilk kitablarının orijinal nüsxələri mühafizə olunur və bu kiçik kitabçaların yenidən nəşri həmin yazıçı və şairlərin özlərinə və həyatda olmayanların ailələrinə, habelə bugünkü oxuculara nostalji hissləri yaşada bilər. Bir vaxtlar nəşr edilmiş ilk kitabçaların "Görkəmli şairin, yazıçının ilk kitabı" adı altında "Azərbaycan Milli Kitabxanasının Qızıl fondundan" seriyasından çap olunması həm insanlarda nostalji hissləri oyatmağa, həm də bugünkü nəslin həmin ktablarla tanış olmasına imkan yaratmağa xidmət edəcəkdir.

Bunları nəzərə alan Milli Kitabxana 2025-ci ildən "Görkəmli şairin ilk kitabı (Azərbaycan Milli Kitabxanasının Qızıl fondundan)" seriyasından ilk nəşri, bu layihənin qaranquşu kimi XX əsr şerimizin görkəmli nümayəndəsi, Xalq şairi Bəxtiyar Vahabzadənin 1949-cu ildə "Azərnəşr" tərəfindən çap olunmuş "Mənim dostlarım" kitabını böyük məmnuniyyətlə oxuculara təqdim edir.

Davamlı və uğurlu olsun!

**Kərim Tahirov**
**Layihənin rəhbəri, professor**.

# MƏNİM DOSTLARIM

Mən öz çarpayımın baş tərəfindən
Asmışam dostlarla birgə şəklimi.
Seyr edib həsrətlə hər gün onları
Çırpınır, çırpınır könlüm quş kimi.

Məni qınamayın, bu sadə şəkil,
Bu evdə hər şeydən əzizdir mənə.
Hər ona baxınca qonaq gedirəm
Ömrümün ən əziz, xoş illərinə.

Sevimli, mehriban müəllimlərim
Odur sıra ilə başda düzülmüş.
Kimisi zilləmiş baxışlarını,
Kimisi bir azca qımışıb gülmüş.

Oturmuş dostlarım, dərs yoldaşlarım
Aşağı cərgədə budur yan-yana.
Onlara baxdıqca düşünərəm mən.
Böyük bir aləmdir bu hal duyana.

Bəli, bu qayğısız, bu şən uşaqlar
Bir vaxt bir sinifdə oxuyardılar.
Eşqi, həvəsləri, arzuları bir
Hər şeyi bir görüb, bir duyardılar.

İndi səpələnmiş onlar hər biri
Geniş vətənimin bir guşəsinə.
Arzular, diləklər başqalaşsa da
Bir məqsədə gedir hamısı yenə.

Hərdən görüşəndə yoldaşlarımla
Məktəb illərini yad edirik biz.
Bu ani söhbətdə məktəb zənginin
Yeknəsəq səsini eşidirik biz.

Mənim ən mehriban can sirdaşımdı
Bax bu qıraqdakı bu nazik oğlan.
Həmişə bir yerdə hazırlaşardıq.
Qardaş bilərdilər bizi çox zaman.

Yamanca sevərdi o təbiəti.
Yaylarda dağlardı onun məskəni.
İndi aqronomdur uzaq bir kənddə.
Hərdənbir məktubla yad edir məni.

Bu isə çevikdi, çox diribaşdı.
İdman oynamaqdı onun peşəsi.
Könüllü orduya yazıldı axır,
Gəldi döyüşlərdən bir zaman səsi.

Bu isə, bu isə bütün ölkədə
İndi ən tanınmış bir bəstəkardır.
Şirin nəğmələri dillər əzbəri,
Ölkəmizdə böyük şöhrəti vardır.

Ey mənim dostlarım, dəyişmiş bütün
Əvvəlki hissimiz, əqlimiz artıq.
Dünən hər şey üstə küsən, barışan,
Uşaqlar deyilik indi biz artıq.

İndi siz nə qədər ucalsanız da
Mən demirəm hər gün, barı bir kərə,
Baxınız, baxınız bu şəkildəki
Başınız üstdəki müəllimlərə.

Bizdən çox ucadır onların yeri.
Dostlarım, nə qədər ucalsaq da biz.
Hər zaman onların şagirdləriyik
Sabah onlar kimi qocalsaq da biz.

Mart 1949.

# YAŞIL ÇƏMƏN, AĞAC ALTI, BİR DƏ Kİ, TÜND ÇAY...

Güllü bağça... arx kənarı... bir axşam çağı,
Oturmuşuq kölgəlikdə qardaşımla mən.
Başımızın üstündəki çarpaz budağı
Xışıldadır, xəfif-xəfif külək əsirkən, -
- Danışmırıq... Dərin sükut çöküb ortaya.
Müsahibim bayaqdandır buğlanan çaya
Zilləyərək gözlərini düşünür müdam...
Nədənsə çox fikirlidir yenə bu axşam.
-Çayını iç.
O, danışmır.
- Nə var, nə olmuş?
Söylə görüm, halın yenə niyə pozulmuş?
Şükür olsun qayıtmısan sevinək, gülək.
Sən ömrünün bağçasına nəşədən gül ək!
Dillən, görək! Bəlkə bir dərd üz vermiş sənə
Yenə dinmir...
Can qardaşım, bir dillənsənə!
Dedikdə o, təslim olub bu inadıma
Deyir, - indi bir əhvalat düşdü yadıma,
Kədərləndim... dinlə sənə danışım onu.
Bil dərdimin, düşüncəmin nə olduğunu:
Cəbhədə bir ellimizdən dostum var idi.

Mənim üçün dar günümdə qəmküsar idi...
Arxadakı əlli illik dosluqdansa bil
Cəbhədəki bircə günlük möhkəmdir daha.
Çünki orda gün, ay vardır, yoxdur uzun il.
Bu sabahdan umud olmur gələn sabaha...
Hərdən söhbət eyləyirdik döyüş yatanda.
Gələcəklə yaşayırdıq həmən bu anda.
Bir gün dostum dedi: “bir də bağçamızda mən,
Çiçəklərin arasından keçəcəyəmmi?
Kölgəlikdə, otlar üstə oturub həmən
Vətənimin tünd çayından içəcəyəmmi?..”
Bunu dedi, bir az keçdi... gurladı toplar...
Biz hamımız tez sarıldıq, dərhal silaha
Döyüş qızdı... qopdu bu dəm bir dəli rüzgar,
Ondan sonra mən dostumu görmədim daha.
Son döyüşdən sağ çıxmadı o nəcib insan.
“Budur məni düşündürən bayaqdan bəri...”
Deyib qəmli söhbətini qurtaran zaman,
Gördüm artıq doluxsunmuş onun gözləri.

***

Külək əsir xəfif-xəfif yerdə sürünür.
Qəlbimizə hakim olur dərin bir məlal.
Soyuyaraq qarşımızda çay buza dönür.
Nə içən var, nə danışan... At çapır xəyal-
Həmən əsgər, həmən nakam alnında qürur,
Gəlir mənim göz önümdə canlanıb durur.
Elə an var, insan onu unuda bilməz.
Cingildəyir qulağımda bir ahəstə səs:

“...Dostum! Görən bir də güllü bağçamızda mən,
Çiçəklərin arasından keçəcəyəmmi?
Kölgəlikdə otlar üstə oturub həmən,
Vətənimin tünd çayından içəcəyəmmi?..

Sentyabr 1944.

## MİRVARİ

Bu gün bizim evimiz bənzəyir toyxanaya.
Mənə, bir də o quş tək süzən qoca anaya
Verir göz aydınlığı bütün qohum, qonşular.
Fərağında yandığım o cəbhədən dönən yar,
Bizi süzüb gözaltı, gülümsünür astaca.
Könlümdə hicran odu keçir, sönür astaca.

Sədaqətli sevgilim əsgərliyə gedərkən,-
Boylu idim onda mən.
Ondan bir azca sonra bir qızım oldu mənim.
Elə bil ki, gül açdı son baharda gülşənim.

Mən bir azdan qaçıram yan otağa çaparaq
Körpəmizi gətirib deyirəm ki: - Yaxşı bax,
Bunu tanıyırmısan?..
Görüb qızı sevincək-
Tez o qalxır ayağa... Bizi bir də süzərək
Qucağımdan top kimi qapır qızı bir anda.
Mənsə bu dəm gülərək deyirəm: ay apardım!
- Nə?
- Mərc çəkişdiyimiz qalmayıbmı yadında?
Amma səni qorxudub yaman bağrını yardım.
Yadındamı on düzüm mirvaridən çəkişdik?
Osa karıxmış kimi baxıb üzümə dik-dik

Deyir: - Vallah indicə yadıma düşdü... demək
Mən sənə borclu qaldım. Yaxşı, deyin bəs görək,
Nədir adı qızımın?
- Heç nə.
- At zarafatı.
- Doğrusunu deyirəm, hələlik yoxdur adı.
- Niyə?
-Son məktubunda yazmışdın ki, gərək mən,
Qız, ya oğul, adını özüm qoyam cəbhədən.
Elə həmin o vaxtlar doğuldu bu qızcığaz.
İl dolandı, gəldi qış, getdi bahar, getdi yaz,
Səndən soraq almadıq... boğdu bizi bu hicran,
Sənsiz də biz uşağa ad qoymadıq, o vaxtdan
"Atası qoyar" deyə biz gözlədik yolunu.
Çağırırıq hərəmiz indi bir adla onu.
- Bəli, bəli, bilirəm çəkdiyindən halıyam,
Demək indi körpəmə özüm ad qoymalıyam?
- Hə...
- Bu saat!
Uzadıb körpəni mənə sarı
- Deyir: - Götür! Al, bu da uduzduğum Mirvari.

Dekabr 1944.

## XATİRƏLƏR

Bəli, artıq çoxdandır ki, görmürəm o dəhşətləri.
Almış məni öz qoynuna sakit həyat çoxdan bəri.
Lakin hərdən yada düşür yenə keçmiş xatirələr.
Sanki toplar guruldayır qulağımda axşam səhər.
Gah səhralar xəyalımda gülümsəyir bir anlığa
Gah bürünür qaranlığa.
Gah da sakit bir meşədə deyib gülən dostlar yenə
Yığılırlar alovlanan bir tonqalın dövrəsinə.
Sakit gecə... solmuş göyün çiçəkləri... aysa baxır.
Əriyərək o nur camı asta-asta yerə axır...
Meşə geymiş öz əyninə qar donunu...
hər yan düm ağ,
İşıldayır almas kimi göz qırparaq yaxın, uzaq...
Bir dostum da söykənərək tüfənginə,
Çox sevdiyim bir mahnını aram-aram deyir yenə...
Bax, indi də qulağımda cingildəyir həmin mahnı.
Nələr deyir həmin mahnı;
“Qaranlıq bir gecə... yenə vıyıldayır al güllələr,
Küləklərsə boş səhrada quzu kimi mələr-mələr...”[1]
Ömrün tacı gəncliyimi cəbhələrdə mən qoymuşam
İndi isə o günlərə qanad açan quşam, quşam.

---

[1] Müharibə dövründə yaranmış rus mahnısından

Bu gün baxır, seyr edirəm mən onları
heyran-heyran.
İllər qovur... ömür qaçır, qocalanda mən bir
zaman
O sevdalı gəncliyimi gəzəcəyəm cəbhələrdə.
Çünki mənim dəli könlüm qalmış indi o yerlərdə.
Mənimlə bir nəfəs alır yenə həmin xatirələr.
Yenə toplar guruldayır qulağımda axşam səhər...

Noyabr 1945.

## SABAHINIZ XEYİR OLSUN

Zülmət gecə əridikcə aram-aram dan sökülür.
Keçir köyün çıraqları... göy ağarır... səhər gülür.
Günəş əlvan boyalarla ziynət verib üfüqlərə
Boylandıqca dan yerindən örpəyini sərib yerə,
Yuvarlaq bir təkər kimi göy üzünə vara-vara,
Deyir qadir insanlara:
– Sabahınız xeyir olsun!

Bir ağ saçlı qoca alim miz dalında əyləşərək
Yorulmadan nurlandırır gecədən ta səhərə dək
Elmin sönməz çırağilə açılmamış sirriləri.
Gülür onun arzusuna kamalının al səhəri.
O səhərin şəfəqləri gözlərində çimə-çimə,
Deyir sanki bu alimə:
– Sabahınız xeyir olsun!

Pozub dərin sükunəti açıldıqca darvazalar,
Çıxır əmək orduları üzlərində gülür bahar
Tək-tək addım sədaları səsləndikcə orda-burda
Çiçək açır dodaqlarda:
– Sabahınız xeyir olsun!

“Vaxtdır” deyə bağırdıqca zavodların o gur səsi –
Xoş əməyin hər sübh çağı coşan qadir təntənəsi,
Mədənlərin üzərində qanadını gərə-gərə,
Deyir sanki fəhlələrə:
– Sabahınız xeyir olsun!

1944.

# TƏZƏ ŞƏHƏR

*Mingəçevirə şəhər adı verilməsi münasibətilə.*

– Uşaqlar, kim göstərər Mingəçevir hardadır?
– Mən.
– Buyur gəl.
– Müəllim, bax bu aralardadır.
Bu xəritə köhnədir...
– Dünən almışıq, xeyir!
– Bəs nə üçün buraya düşməmiş Mingəçevir?
O ki, indi şəhərdir. İndi orda həyat var.
Bu tutarlı cavablar,
Yeni bir aləm açdı müəllimin gözündə
Düşündü: “doğrudan da Mingəçevir düzündə
İndi böyük əzm ilə çırmanmışdır biləklər.
Bir zaman boş səhrada əsən vəhşi küləklər
İndi orda möhtəşəm binalarla öpüşür.
Hər ağac budağından xəfif bir kölgə düşür,
Gözəlləşir bu şəhər.
Hər eyvandan, hər evdən, işıq gəlir gecələr.
Boz səhranın yerində dalğalanır göy çəmən.
Bir zaman saymazyana bu düzdən ötüb keçən
Quşlar yerə enirlər burda həyat qurmağa.
Onlar pənah gətirir hərəsi bir budağa.
Şənlənir gözəl şəhər xoş həyat nəğməsindən.

Necə sürətlə axıb dəyişir zaman... Dünən
Aldığımız xəritə köhnədir artıq bu gün”.
– Yaxşı, dediyin yerdə bir dairə çək özün.
Uşaq çəkir...
– Necə də asan çəkdin sən bunu,
Ancaq nə olduğunu
Bilirsənmi bu işin? Söylə, quzum, bunu sən,
Çəkdiyin vaxt gördünmü bəs orda zəhmət çəkən
İgid qardaşlarını?
Onlar ilk daşlarını
Qoydular bu şəhərin.
(İnsan donur, duyduqca bunları dərin-dərin)
De, gördünmü gecələr əyləşib miz dalında
Yuxusunu qaçırıb, öz geniş xəyalında
Bu şəhərin əksini çəkən o mühəndisi?
Yaratmaqdır, a quzum, kama çatdıran bizi.
De, gördünmü orada baxıb günəşə sarı
Təbiətə hökm edən cəsur qəhrəmanları?
Bəli onlardır, onlar çalışıb axşam səhər,
Bugün, bu dairəni xəritədə çəkənlər.

Fevral 1949.

# SƏNİN TİKDİYİN EVDƏ

Yaxşı yadımdadır uşaqlığımız.
Biz onda mehriban dost idik. Yalnız
Sən başqa sevdayla uçardın göyə:
- Həyatın mənası başqadır... - deyə.

Bir yaratmaq eşqi var idi səndə.
Sən hara, bircə an susqunluq hara?
Mən gülə, çiçəyə tərif deyəndə
Sən lək düzəldərdin şux fidanlara.

Mən deyərdim: "Nola çəkilə duman",
Sənsə düşünərdin bu işə çara.
Mən yazı həsrətlə gözləyən zaman,
Sən yuva tikərdin qaranquşlara.

Quşlar qış günləri civildəşəndə
Onların dərdləri olardı dərdin.
İsti çardaqlarda, daşlar dibində
Yuvasız quşlara yuva tikərdin.

Şimşək sürətilə ötüşdü illər,
Nəhayət böyüdük, biz yaşa dolduq.
Aldı öz qoynuna bizi arzular,
Hərəmiz bir yolun yolçusu olduq.

Sən mühəndis olub bu gün, əziz dost,
Binalar tikirsən, bağlar salırsan.
Hər dəfə görüncə öz əməlini
Özün öz işindən ləzzət alırsan.

Fərəhlə keçdikcə öz əllərinlə
Tikdiyin evlərin yanından hərdən,
Astaca gülürsən, sənin çöhrənə
Gülüş səpələnir pəncərələrdən.

Bu gülüş əks edir sənin üzünə.
Gül, dostum, gülüşlə doğsun səhərlər.
Tikdiyin hər evdə, hər uzun gecə,
Yaranır yüzlərlə yeni əsərlər.

Yaratmaq nə qədər şirindir deyə.
Mən də yaradıram səninlə birgə.
Mənim misralarım durur cərgəyə,
Binalar tikdikcə sən cərgə-cərgə.

Budur, əyləşmişəm sənin tikdiyin
Bu gözəl, bu geniş otağımda mən.
Nəğmələr düzürəm sənin şəninə
İlhama gələrək əməllərindən.

Oktyabr 1948.

## AĞ SAÇLAR

Yolda sinif müəllimim qabağıma çıxdı bu gün.
Doğmam kimi o əzizdir mənim üçün,
Yaxınlaşıb salam verdim tanımadı deyən məni.
Öyrədənim tanımadı öyrənəni.
Mən böyümüş, o qocalmış
Aramızda duran illər
onu məndən, məni ondan ayrı salmış.
Mən qanadsız bir quş idim, açdı mənim qanadımı
Yazmağı o öyrədib axı, mənə öz adımı.
Dünən mənə düşünməyi, dərk etməyi öyrədən o,
Hərflərin cığırıyla yol getməyi öyrədən o.

Bu gün biri-birimizə görün neçə yad olmuşuq.
Onun köhnə şagirdləri hər birimiz onun üçün
İndi adi ad olmuşuq.
Məktəbimi deyincə, o, sinifimi xəbər aldı.
Yaddaşından duman ötdü, çən dağıldı.
Yavaş-yavaş yada saldı.
Öpdüm onun əllərini
Qar kimi ağ tellərini
Qucaqlaşdıq...
Elə bil ki, qucaqladı qürub çağı dan yerini.

Bu dünyanın nə qəribə oyunu var
O yazdıqca əlindəki təbaşirdən qopan tozlar
Ağartmışdır saçlarını... mən baharam, o sa qışdır
Yəqin mənim ağ günümçün onun saçı ağarmışdır.

Dekabr 1948.

## KÖNÜL BAHARI

Qadan alım ey bəstəkar.
Yurdumuza gəldi bahar.
Dilə gəlsin səhər-səhər
Könlündəki zərif tellər.
Bas bağrına, çal tarını,
Dindir könül baharını.

Çal, nəğməndə həyat gülsün.
Çal, dinləsin səni dağlar.
Sən səslərin dili ilə
Bizə anlat nədir bahar.

Tar çalınır aram-aram... cansız simlər dilə gəlir
Bülbül uçub gülə gəlir
O simlərdən axır sanki çəmənlərə gur çeşmələr.
Çay başında kəsik-kəsik quzu mələr...
Bu nəğmədə qanad çalan səslər gülür,
Bahar onun ürəyindən lal simlərə hey süzülür:
Geyir yenə öz əyninə ağ donunu yasəmənlər,
Ətirlənir göy çəmənlər.
Min bir şirin səs ucalır bu budaqdan, o budaqdan.
Ahular da su içməyə enir dağdan.
Qaranquşlar "vətən" deyə ana yurda dönür yenə.
Alma, heyva çiçəklənir, kölgə düşür diblərinə.

Bağ arası qıjıltıyla axıb gedir xırda arxlar.
Kol dibindən pırıldayıb quşlar uçur qatar-qatar.
Çal, ey dostum! Çal, əzizim!
Çal, nəğməndə bahar gülsün.
Çal! Tarının pərdəsində dan sökülsün.
Çal qardaşım, biz bilirik nəğməndəki hikmət nədir
Əsl bahar bu gün sənin o ilhamlı qəlbindədir.

Aprel 1947.

# MƏKTƏB ŞEİRLƏRİ

## İLK CIĞIR

Yavaş-yavaş sökür dan,
Şəhər qalxır uyqudan.
Qapılar da açılır,
Budur çıxır yollara,
Zəhmətin övladları.
Onlar açır
Qar üstündə ilk cığır.

Bir iz keçir... Onların ardınca çıxır çölə,
uşaqlar səhər-səhər
Açılmış cığırlarla onlar da gülə-gülə,
Məktəblərə gedirlər.

Get, ey yavrum, qəlbini gələcəyə bağla sən,
Çocuqluq həyatının ən qayğısız çağıdır.
Açılmış cığırlarla bu gün dərsə gedirsən,
Sabah sən açacaqsan bu yollarda ilk cığır.

1947.

## QIZIL MEDAL

Bax quzum, aldığın o qızıl medal,
Çiçəkdir, dərmisən zəhmət bağından.
Onun şəfəqində gülən istiqbal,
Səni xoşbaxtlığa aparır hər an.

Haqqın var, əzizim, haqqın var, öyün
Kamalın çiçəklər açan bu gündə.
Alışır, kitablar üstdə tökdüyün
Göz nurun medalın şəfəqlərində.

Həyat yollarına düşmüsən artıq.
Hələ qabaqdadır qələbən sənin.
Medalında yanan o parlaq işıq
Rəmzidir işıqlı gələcəyinin.

Oktyabr 1947.

## İLK DƏRS

Bu gün yeni dərs ili
Başlanır... Səhər-səhər
Məktəblərə yollanır
Al yanaqlı körpələr.

O dalında çantası
Gedən uşağa bax bir
Əlində bir dəstə gül
O, məktəbə tələsir.

Sevinc sığışmır onun
Bugünkü hər anına.
Bu gün ayaq basacaq
Məktəb pilləkanına.

Bəli, bəli, gör necə
Sevimlidir... o, bu gün
Həyatında ilk dəfə
Gedir bir məqsəd üçün.

Pillələri aramla
Qalxır tək-tək yuxarı.
Həyatda da o belə
Yüksələcək yuxarı.

Bu qədəm ilk qədəmdir
Arzular üçün ona.
Bu qədəm son qədəmdir
Şıltaq uşaqlığına.

Zəng çalınır... uşaqlar,
Bir-bir dolur sinifə.
Bu qəribə zil səsi,
O, eşidir ilk dəfə.

Bu səs gör bir nə deyir:
“Qədrini bil hər günün”
Bu gün gördüyü hər şey,
Yenidir onun üçün.

Dərs qurtarır. Dağılır
Evlərinə uşaqlar.
O da gedir üzündə
Bu gün başqa sevinc var.

Sən bu gün “A” səsini
Öyrənmisən a bala,
Onu sev, sən onunla
Yetəcəksən kamala.

Müqəddəsdir, əzizdir
Sən sev bu “A” səsini,
Bu səslə yazacaqsan
Sən “Ana” kəlməsini.

Biz ilk qələm tutanda
Bu kəlməni yazırıq.
“Ana vətən” deyərək
Ölməyə də hazırıq.

Ana, vətən deməkdir
Quzum, sev bu vətəni.
Vətəndir məktəb açıb
Bu gün oxudan səni.

Sentyabr 1948.

## MƏKTƏB YOLLARI

A məktəb yolları, məktəb yolları
Sizdə qar da gördüm, duman da, çən də.
Könlüm yarpaq kimi titrəyib əsir
Yenə bu yollardan ötüb keçəndə.

Çocuqluq günlərim düşür yadıma,
Məktəbə aparmış bu yollar məni.
Diləklər qonardı qol-qanadıma,
Necə uçurardı xəyallar məni.

Hər gün iki dəfə keçərdim sizdən.
Hər gün bir yüksəliş, hər gün bir sınaq.
Gedişim yüngüldü, gəlişimdə mən,
Hər dəfə bir pillə artırdım ancaq.

A mənim uşaqlıq, gənclik həmdəmim,
Sən bilsən nə qədər mənə əzizsən.
Hər kiçik daşının üstündən azı,
Adlayıb keçmişəm min bir dəfə mən.

Mən yarıb keçmişəm, sənin üstünü
Bürüyən dumanı, bürüyən sisi.
Sənsən ömrüm boyu, həyatım boyu,
Getdiyim yolların ən şərəflisi!

A məktəb yolları, sizsiniz yalnız,
Yaradan işıqlı istiqballarıı.
Məni xoşbaxtlığa siz apardınız,
A məktəb yolları, məktəb yolları!

1947.

# TOXUCU QIZ

V.İ.Lenin adına Nuxa ipək Kombinatının staxanovçu komsomolçusu Barat İsmayılovaya ithaf olunur.

## G i r i ş

Qocaman dağlarla əhatələnmiş
Qədim bir şəhəri seyr edirəm mən.
(İlham ulduzları könlümə enmiş
Bu gözəl yurdumun saf göylərindən).
Yaşadım dağlarda, qəmsiz, kədərsiz,
Burda dolaşdığım hər cığır, hər iz,
Mənim ürəyimdə izlər buraxmış.
Dağların çayları qanımda axmış.
Dönüb misralara bu gün bu izlər
Axır ürəyimdən, axır su kimi.
Hər yerdən əzizdir mənə bu yerlər,
Mən burda almışam ilk nəfəsimi.
Sinəsi yam-yaşıl Xoçik[2] düzündən
Bu gözəl şəhəri seyr edirəm mən.
Yurdumun çox qədim bir cəlalı var,
Şumal boy sərvlər, uzun çinarlar,
Bu yerin şöhrəti məndədi deyə

---

[2] Nuxada yer adıdır.

Evlər arasından ucalır göyə.
Ah, nələr görmüşdür ağ saçlı Şəki,
Oxuyuram onun dövrəsindəki
Hasardan yazını: “Məmməd Həsən xan”[3]
Ellər qan udaraq yəqin bir zaman
Çəkmiş bu hasarı, belədir, bəli!
İnsanın zəhməti, işi, əməli
Demək sərf olunmuş əyləncələrə,
Babamın zəhməti getmiş boş yerə!...
Sirli xəzinədir bu qara torpaq,
Hər addım başında bir qaynar bulaq.
Suları billurdur, çölləri məxmər.
Dağların döşündə düzülən evlər,
Bənzəyir qırmızı pilləkənlərə;
Hər qaya, hər təpə bir xoş mənzərə…
Baxıram, baxıram mən dörd bir yana,
Şəhəri tən yarı bölüb Qurcana[4]
Axır Şah dağının ətəklərindən.
Əzəldən dağların vurğunuyam mən.
Şəhərin ən kənar baş tərəfində
Ağarır möhtəşəm böyük bir bina.
Onun öz işləri, öz əməlləri,
Nə qədər yaraşır öz vüqarına.
Geyim-keçim alır ölkəmiz ondan,
Orda çiçəklənir min böyük dilək.
Taybatay açılan son qapısından
Böyük maşınlara yüklənir ipək.

---

[3] Şəki xanlarındandır.
[4] Çay adıdır.

O dağın dibində çay qırağında
Tikilən bəndlərlə gülür çöl-çəmən.
Şəhərdə alışan ulduz çıraqlar,
Alır öz nurunu bu tikintidən.
Sinəsi göy məxmər dağın döşündə
Ağaran evlərə, binalara bax.
Bu geniş ölkəmin hər guşəsindən
Dincəlir orada hər il min qonaq.
Ağac kötüyünə, daşlar üstünə
Min xatirə yazır gələn qonaqlar.
İçincə dağların saf sularından
Çıraq tək alışır burda yanaqlar.
Bu iqlim dərmandır hər acı dərdə,
Bu gözəl dağlarda, bu çəmənlərdə
Bir zaman Səbuhi dolaşıb yanmış,
Bu gözəl günləri o zaman anmış!...
Baxıram həsrətlə, baxıram yenə,
Qanavus tül çəkir göylər üzünə.
Günəş çəkiləndə uzaq dağlara…
Şər qarışan kimi tez budaqlara
Dırmanır bir anda toyuq cücələr.
Bu sakit halında xəyala bənzər
Bizim bu möhtəşəm dağlar şəhəri.
Gözəldir axşamı, xoşdur səhəri.
Dağlar yapıncıya bürünür artıq,
Şəhərin üstünə enən qaranlıq
İşıq sütunlarda çəkilir dara,
Şəhər bürününcə çil-çıraqlara.
Evlər arasından göylərə sarı

Tüstü burumları qalxır yuxarı.
Yanır həyətlərdə yenə ocaqlar,
Oxuyur səs-səsə verib uşaqlar.
Dönürəm mənzilə aram-aram mən,
Sığışmır köksümə könlüm fərəhdən.
Görürəm, görürəm gedir uzaqdan
Bizim Səlim baba – o qoca bağban.
Yanında da bir gənc. O kimdir, görən?
İlk dəfə görürəm bu cavanı mən.
Səlim baba ilə salamlaşaraq
Ötürəm. Sevincim aşıb-daşaraq
Köksümə sığışmır, tələsirəm mən,
Min həvəs, min istək keçir könüldən,
Çağlayır qanımda çayların səsi,
Doğur ürəyimdə yazmaq həvəsi.

## I

Qış qurtarır… Yer canlanır göz yaşını silə-silə.
Cana gəlir qarlı dağlar baharın xoş nəfəsilə.
Yavaş-yavaş əridikcə quzeylərdə ağaran qar,
Haray düşür dərələrə, nərildəyib daşır çaylar.
Gün əyilib yavaş-yavaş yuvarlanır qərbə sarı.
Bu dəm gəlir el yoluyla bir gənc oğlan baş yuxarı
Şahin gözlü bu cavanın əlində bir bağlama var.
O yeriyir asta-asta baxışında bir intizar.
Nədənsə o çox ləng gedir şaqqıldayır qıçı həm də,
Həmən səsdən bəlkə gizli əzab çəkir o bu dəmdə.
Bəli onun gözlərində narahat bir ürək yanır.
Uzun yoxuş, daşlı yollar uzandıqca hey uzanır.

O ilk dəfə görür, sanki bu şəhəri… Baxır-baxır…
Gözlərində şölə çəkib maraq dolu həvəs axır.
O boylanır qərib-qərib ətrafına, elə bu an
Bir ağ saçlı, ağ saqqallı qoca keçir lap yanından.
– Əmi, ipək kombinatı haradadır?
– Necə bala?
– Tanımıram buraları. Nabələdəm bu mahala.
– Ancaq, oğul gün əyilib, iş qurtarar indi yəqin…
Kombinata hələ çox var, yol həm uzaq, həmdə
çətin, Gedək bizə…
– Sağ ol, əmi!
– Sağıq, sağıq, gedək.
– Sağ ol!
Mehmanxana yoxmu məgər?
– Bu nə sözdür, gedək oğul,
Şükür olsun təknəmizdən əksik deyil çörəyimiz,
Yurdumuzun şəni qədər genişdir gen ürəyimiz.
Qoca çəkib o cavanı düz aparır öz evinə.
Yol uzunu davam edir sorğu-sual, söhbət yenə.

***

Axşam düşür, qaş qaralır, kölgələnir sıra dağlar,
Sıldırım dağ döşlərində ulaşır ac yalquzaqlar.
Alışdıqca üfüqlərdə günəş adlı gözəl pəri,
Şölələnir Qurcanada onun qızıl şəfəqləri.
Sərin-sərin kölgə düşür həyətlərə hər budaqdan.
Arxasınca toz dumanı enir naxır, qarşı dağdan.
Bir andaca tüstülənib həyətlərdə yanır ocaq
Hamı bir-bir işdən dönür… evə dolur oğul-uşaq.

Qızlar gəlir bulaqlardan bellərində güyüm, səhəng
Başlardakı kəlağaylar hər birisi çalır bir rəng.
– Ay qız, Kübra, dayansana, dayan mən də çatım, Kübra!
– Tələsirəm, hələ mən od salmamışam samavara…
– Yaxşı, dayan, birgə gedək.
– Hə, di tez ol…
Gedir onlar..
Hər birinin ürəyində min arzusu, min kamı var.
Onlar çatır evə artıq… ayrılırlar çox mehriban.
Atasını bir gənc ilə görüb Kübra durur bir an.
– Qızım, qonaq Bakıdandır, tanış olun.
– Seyfi!
– Kübra.
– Anan hanı?
– İndi gələr…
– Tez ol, qızım, tez ol, daha…
Oğul, sən də dincəl bir az, yoldan gələn yorğun olar.

***

Bir az sonra pıqqıldayır miz üstündə ağ samavar.
Bütün külfət toplaşınca böyük mizin ətrafına,
Çay süzülür. Bir quş kimi ortalıqda süzür ana.
Arxasınca dalğalanır gül-çiçəkli kalağayı;
Süfrəyə min bəzək verir Lənkəranın rəngin çayı.
Yeyir, içir bütün külfət … Radio da dinir nagah
– İgid Nuxa ipəkçisi Nabat üçün “zabil səgah”
– Oğul, bəlkə eşitmisən, bu qız məşhur toxucudur.
Kombinatda ən birinci, ən birinci usta, budur.

Asta-asta havalanır qəlb oxşayan tarın səsi.
Azərbaycan dağlarından axan çayın züm-züməsi,
Dalğalanır… nə şirindir. Nə doğmadır bu səs bizə.
Bu səs ana laylasıyla yol açmışdır qəlbimizə.
Biz bu səslə həm uçmuşuq, bağlanmışıq həm də yerə
Biz bu səslə qovuşmuşuq əl irişməz diləklərə.
Biz bu səslə bəsləmişik sevgimizi daim canda,
Biz bu səslə dərdləşmişik bəzən evdə tək olanda.
Hamı qulaq kəsilmişdir… Pərdələrdən qopan nalə,
Öz səsiylə hər ürəyi salır bu an min xəyalə…
– Oğul bir din, danış görək oralarda nə var, nə yox?
– Sağlığınız.
– Öz evindir, durma belə soyuq-soyuq.
Çoxdandır ki, getməmişəm, indi Bakı necədir bəs?
– Çox yaxşıdır.
– Bolluqdurmu?
– Bəli, bəli tapır hər kəs
İstədiyi hər bir şeyi...müharibə unudulmuş
Mağazalar ağzınacan hər cür malla yenə dolmuş.
– Olsun, oğul, bolluq ilə keçsin bizim hər çağımız,
Görüm odsuz olmasın heç bizim dolu ocağımız:
– Sənətiniz nədir, əmi?
– Bağbanam öz həyətimdə.
İpəkçilik məktəbində müəlliməm, oğul, həm də.
Nədənsə, mən bu sənətdən zövq alıram, oğul, inan.
İpəkçilik miras qalmış bizə ata babamızdan.
Bu qızım da kəlağayı ustasıdır. İndi məni
Yarışa da çağırmışdır. Çox sevirik bu peşəni.
– Peşən nədir bəs sənin?

– Mən çilingərəm.
– Çox pakizə.
Bu peşə çox gərək olur doğrudan da burda bizə
Toxuculuq dəzgahları xarab olur... Bu vaxt bəzən
İş dayanır... yaxşı usta tapılmayır. Yəqin, ki, sən
Bu işdə çox işləmisən. Çox təcrübən olsun gərək.
– Bəli, bir az işləmişəm müharibə ilinə dək,
Ordudasa oxuyaraq təyyarəçi oldum, əmi.
Əzəl gündən dəmir olmuş həyatımın ilk həmdəmi.
Uzun sürən bir döyüşdə təyyarəmi vurdu düşmən.
Paraşutla macal tapıb atdım yerə özümü mən.
Ancaq qıçım şikəst oldu. Eh, neyləyək,
keçib ondan...
Mənə yasaq elədilər uçmağı da o zamandan.
Ağır, acı düşüncələr ürəyimə oldu həmdəm,
Aha, demək mən bir daha göy üzündə
süzməyəcəm!...
Bu fikirlə alışdıqca göylər idi dərdim-sərim,
Həm ürəyim zəiflədi, həm pozuldu əsəblərim.
Nə bəlalar çəkdim, əmi, bu vas-vası həkimlərdən.
Tapşırdılar gərək dağlıq rayonlarda yaşayam mən.
Mənim Ənvər adında bir cəbhə dostum var idi. O
Buralıydı… bəlkə onu tanıyarsan?
– Yox, doğrusu
Bu ad mənə tanış gəlmir. Dağınıqdır şəhərimiz,
Bəlkə də dağ tərəfdəndir, tanımarıq onları biz.
– O həmişə bizə orda bu yerlərdən danışardı.
Hərdən də bir oxuyardı.... çox gözəl də səsi vardı.
Bu məzəli dostumuzu, doğrudan, çox sevərdik biz.

Onun ilə hər bir zaman xoş keçərdi günlərimiz.
Qospitalda mən yatanda o yanıma gəldi bir gün,
Başladı tez zarafata dedi: – dostum, canım üçün,
Səni bacım xilas etdi. Dedim – necə, de görək bir.
Dedi: – səni xilas edən o paraşut ipəkdəndir,
Bacım da ki toxucudur... Biz gülüşdük dedi: – Bəli,
Bu gün sənə yararlıdır Nuxamızın hər əməli.
O çəkdiyin tütünü də kiçik bacım əkmiş orda.
Biz beləcə gülüşərdik, gülüşərdi yoldaşlar da,

***

Söhbət qızır... qabaqlarda çay soyuyur əqrəb
dönür,
Gecə keçir... yavaş-yavaş samavarın odu sönür.
Şəhər yatır... bir sakitlik alır bu dəm bağça-bağı,
Bir az sonra sönür Səlim babanın da gur çırağı.

***

Yatır Seyfi, gördükləri xəyal kimi gəlir ona.
Dünən əziz Bakıdaydı, bu gün harda? Eh insana
Nə var ki, o quşa bənzər... bülbül ötür can bağında,
Qurcananın şırıltısı səsləndikcə qulağında...
Burda yeni bir aləm var. Yeni səslər eşitdikcə
Tamam başqa bir şey kimi gəlir, ona indi gecə.
Köpəklərin ulaşması, xoruz banı, çayın səsi,
Çiçəklərin arasında dağ yelinin inləməsi,
Gecənin xoş mahnısı tək səsləndikcə qulağında,
Üzür Seyfi əfsanəvi bir aləmin qucağında.

***

Gecənin bir məqamında nagahanı qopan səsdən
Dik atılır Seyfi...
– Aman, bu nə səsdir, hardayam mən?
Deyə birdən o atılır pəncərəyə... bir də, bir də
Çaxır şimşək... çimir nurda uca dağlar, dərələr də,
Atəş açan topu anır, atəş yağır gözlərindən.
Sanki uca, sıldırımlı dağlar qopur öz yerindən,
Nərildəyib, guruldayıb min qəh-qəhə çəkir göylər.
İldırımın qılıncından enir yerə bir an səhər.
Pəncərələr zağ-zağ əsir, şəfəq düşür şüşələrə,
Əks edərək gurultunu qoca dağlar çəkir nərə.
Bir az keçir... şırıltıyla gəlir yağış... gecə yarı
Taqqıldadır dolu yağış evlər üstə saxsıları.

***

Yavaş-yavaş sönür göydə, göyün almas çiçəkləri.
Geniş çöllər pıçıldaşır, əsir səhər küləkləri.
Titrədərək səhər yeli pəncərənin pərdəsini
Öpür bizim Seyfinin də təbəssümlü çöhrəsini.
Səhərin xoş nəvazişi dağıdaraq yuxusunu
Öz hüsnünü seyr etməyə dəvət edir bu dəm onu.
O geyinib çıxır tezcə sarmaşıqlı eyvana... ah,
Nə gözəlmiş bizim yerlər... deyilmişəm bundan
agah!
Biz hələ də tanımırıq öz mehriban ölkəmizi,
Nəvazişkar nəfəsilə bəsləmişdir bu yurd bizi.
– Salam.
– Salam, sabahınız xeyir olsun... atan hanı?

– Bağçadadır. Deyir o da gəlsin bura...
gəl bağçanı
Seyr elə bir... – deyə oğlan gülümsünür....
gedir onlar,
Gedirlər dar bir cığırla qəlbi gümrah bu cavanlar.

***

Təbiət çox gözəl olur çıxan zaman qarlı qışdan;
Seyfi gəlib görür bağda Səlim baba gur yağışdan
Uçurulmuş ləklərini düzəldərək gülümsünür,
Yəqin onun qəlbi indi fərəhindən dağa dönür.
– Salam.
– Salam. Gecə yaxşı yatıbsanmı?
– Çox sağ olun.
– Oğul, burda – bu bağçada hər ağacın,
hər bir kolun
Mən çəkmişəm zəhmətini... bir heçəm mən bu
zəhmətsiz,
Bir zəhmətin cığırıdır bu alnımda gülən hər iz.
Görürsənmi necə gülür par-par yanan bu
budaqlar,
Onlarla bir gülən qəlbim, onlarla da birgə ağlar.
– Bunlar nədir belə, əmi?
– Bunlar çəkil ağacları.
Bu torpağın ən xoş barı,
Bu gördüyün ağaclardır, bəsləyirəm onu can tək,
Mən onların meyvəsini görəcəyəm ətək-ətək.
Sən bu atlas yarpağa bax; bu atlasdır, bu ipəkdir.
Bu ağacın yarpağını bizim qızlar geyəcəkdir.

Seyfi güldü...
– Gülmə, oğul, öz gözünlə görəcəksən bunları sən.
Bu barədə çox gözəlcə bir məsəl var ta qədimdən:
“Səbrilə halva olar, ey qora, səndən,
Bəsləsən atlas olar tut yarpağından”.
Zaman yaşıl bir cənnətə döndərmirmi boş
torpağı?
Sabahın al ipəyidir bu günün bu tut yarpağı.
Ta qədimdən bu gözəl yurd ucaldaraq öz şanını
İpəyilə bəzəmişdir gözəllərin gərdanını.
Uzaq-uzaq ölkələrə göndərilmiş ipək taylar –
Alma yanaq gözəllərin toxuduğu kalağaylar.
Böyük şöhrət qazanmışdı bir zamanlar bu
çöl-çəmən,
Bəli bir vaxt xəlifənin sarayına zinət verən
İpək tüllər, zər pərdələr Şəkidən də daşınarmış.
Zərif Şəki ipəyinin böyük adı-sanı varmış.
Bir zamanlar firəngilər eşidərək bu şöhrəti
Bağladılar babalarla bir ticarət ünsiyyəti.
Pul axdıqca Fransadan dəvələrə mal qalandı,
Yurdumuzun al ipəyi Avropada dalğalandı.
Talandıqca yurdun varı, ellər çəkdi gizli haray.
Ancaq bu gün evladımın toxuduğu ağ kalağay,
Özgəsinin deyil artıq, öz başında dalğalanır.
İndi mənim ana yurdum, nə satılır nə talanır.
Gedək, oğul, sənə limon bağımı da göstərim mən.
Bizim gözəl Nuxamızı sən çox tezcə sevəcəksən.
Çatacaqdan atlayaraq yetişirlər bağa onlar,
Yaşıl donlu bu bağçada tamam özgə bir aləm var.

İri limon dibçəkləri qatar-qatar cərgələnmiş
Yaşıllığın qucağına sanki göydən nur ələnmiş.
Əlvan-əlvan çiçəklərdən bağça geyib gözəl bir don
Ulduz kimi bərq vurur göy budaqda sarı limon.

Sarı limon, sarı limon,
Sarılığın nədən olur?
Sən bıçaqla kəsiləndə,
Tumurcuğun dən-dən olur.
Bihuş edir ətrin bizi,
Məst eləyir qəlbimizi.
Çiçəkləyir budaqların
Yaz başıdır yarın sənin.
Nə gözəlsən… qış da, yaz da
Əksik olmaz barın sənin.
Çox sevirsən ilk baharı,
Soyuq sənə düşmən olur.
Söylə, limon, söylə nəsən?
Dosta şirin hədiyyəsən.
Sən o qədər əzizsən ki,
Evlər sənə məskən olur.

Səlim baba göstərərək ağacları ona bir-bir
Danışdıqca, hər budağa nəzər salıb fərəhlənir:
– Bax, bu çeşid əla Batum çeşididir, yaranışdan
Bizim yerdə – bu səmtlərdə yetişməzdi heç bir
zaman
Peyvənd edib yetişdirdim, onu isti havada mən,
Bəli, bəli, “biz mərhəmət gözləmirik təbiətdən”.

Onun sabit qanununu dəyişirik biz, a bala,
O nədir ki, hökm eliyə insandakı bu kamala?
Bəsdir daha gedək, oğul, gedək içək çayımızı,
Yaratmaqla yaşamalı vətənimin oğlu, qızı.

II

Человек– это звучит гордо
*М. Горки*.

Düzülmüş yan-yana dəmir dəzgahlar,
Odlu bir şeirin misraları tək.
Hər dəzgah başında bir qəhrəman qız
Verir maşınlara hüsniylə bəzək.
Hər şeyə zinətdir yaranışından
Bu qoca dünyanın bəzəyi insan.

"Uçurmaq asandır, yaratmaq çətin"
Yaratmaq şənidir bəşəriyyətin.
Bu niyyət bizdədir... Bizdə hər insan
Yaratmaq eşqilə yaşayır hər an.

İnsanda yaranan bu ali niyyət
Kimin əllərilə yazıldı ilkin?
Ey doğma yurdumun qəhrəman qızı,
Bu niyyətlə güldü sənin istəyin!
Nabat! Sən zəhmətə könül bağladın,
Güldü arzuların bir çıraq kimi.
İlhama gətirmiş bu gün, ey bacı,
Sənin əməllərin mənim qəlbimi.

Ey əsrin övladı, ey əsrin qızı,
Əsrin nəbzi vurur qəlbində sənin.
Bir addım qabağa yeriyir hər gün
Sənin zəhmətinlə ana vətənin.

Səni iş başında gördükcə, mənim
Gəlir qulağıma keçmişin səsi –
Ömrünü mətbəxdə sürən nənənin
Yaşmağı altında inildəməsi.

Azərbaycan qızı! Nə tez yetişdin
Sən bu mərtəbəyə, bu gözəl günə.
Səni kim qaldırdı, özün söylə bir,
Zamanın fövqünə, dövrün fövqünə?

Sənin dodağına yaddır sızıltı,
Əmək nəğmələri gəzir dilində.
Babanı dağlarda vuran ildırım
Bu gün əyləncədir sənin əlində.

Nənənin cəhrədə əyirdiyi ip,
Öz dərdiyçin belə gəlməzdi kara.
Sənin dəzgahınsa gündə yüz qızı
Bürüyür ən zərif al libaslara.

Cəhrə sızladıqca, sızlardı nənən,
Bir xoş gün görmədi o yazıq qarı.
Batırdı cəhrənin iniltisini
Sənin dəzgahının gurultuları!

Sən möhtac deyilsən bu gün heç kəsə.
Nələr gəlib keçir sənin əlindən.
Təmiz arzuların, xoş diləklərin,
Can alır öz işin, öz əməlindən!

“Əziz bacılarım bəzənsin” deyə
Vaxtı itirmədən sən çalışırsan.
Bu böyük məqsədə sənin çatmağın,
Minləri çatdırır məqsədə hər an.

Xalqın diləyidir sənin diləyin.
Böyük bir arzuyla vurur ürəyin.

***

Birdən zəng çalınır... dəyişir aləm,
Günorta yeməyi başlanır bu dəm,
Qızlar toplaşaraq iki bir, üç bir
Yeməyə başlayır...
– Ay qız Sürazər!
Yenə səni keçmiş deyəsən Nabat.
– Həmişə bir cürə getməz ki, həyat
Qoy olsun, paxıllıq eləmirəm mən.
– Yalansa...
– Çəkinmə, dostum, qibtədən
Qibtə irəliyə aparır bizi,
Həvəslə doldurur ürəyimizi.
– Nabat lap düz deyir ... ancaq Sürazər
Dilxordur ... ucalır şən qəh-qəhələr.
Əlində açarı Seyfi bu zaman

Girir qarşıdakı böyük qapıdan.
Bir-bir yoxlayaraq o dəzgahları
Gəlir yavaş-yavaş qızlara sarı.
– Salam.
– Salam Seyfi! Necəsən?
– Sağ ol!
Doğrudan Seyfimiz oğuldur – oğul.
Deyə gülümsünür azca Sürazər,
Yenidən başlanır şən qəh-qəhələr.
– Niyə gülürsünuz?.. o gələn gündən
Deyin hansı dəzgah dayanmış? Dünən
Yenə də qırırdı sapları dəzgah,
Hələ çəngəli də sınmışdı, vallah
Çağırtdırdım onu, gəldi, bir anda
Təzə çəngəl saldı. Doğrusu onda
Ayrı cür həvəs var. Həm də ki, Nabat
Onun ürəyinə verir qol-qanad.
Bu sexdən əl çəkmir qaravul kimi...
Qızardı bu sözdən Nabat pul kimi,
– Doğrusu, bu qədər təkəbbür olmaz,
Mərhəmət olmur ki, səndə də bir az
Açılsın yazığın qaşı-qabağı.
Çəkirsən qəlbinə dağ üstdən dağı.
– Dil otu yemisən, bəlkə, bu gün sən?
Bu dəm zəng çalınır... uçur yenidən
Zəhmət səmasında bizim bu quşlar.
Onlar cərgələnir tez qatar-qatar.
Dəzgahlar gurlayır. İş qızır...
– Səni,

Ötdüm... süzür qızlar bir-birlərini.
– Neçə sap?
– Mən on dörd.
– Mənsə on altı.
Sürazər, Nabatı süzür göz altı
Qayışlı çarxların çak-çuk səsindən
Güclə eşidilir bu sözlər. Bəzən
Barmaq hesabilə danışır onlar.
Bu yerdə söhbətin nə mənası var.
Yarışın dostlarım, yarışın hər gün
İşini sevənlər gələcək üstün.
Sevgi! Dünya qədər məna var onda,
Vətən qarşısında, el qarşısında
Hər gün verməliyik imtahan, ey dost
Yarış meydanıdır bu cahan, ey dost!
Hər qızın bu sexdə öz dəzgahı var.
Sürazər Nabatla yarışır. Onlar
Ən yaxşı ustadır. Onlardan başqa
Heç kəs işləməyir iki dəzgahda.
Yarışın, yarışın əziz bacılar
Sizin əlinizlə yaranır bahar.
Nabat! arxalanma zəfərlərinə,
Zəfər qazandıqca sən çalış yenə.
Heç kəsi gözləmə, el səni gözlər,
Doğsun zəfərindən yeni bir zəfər.
Sənin əməllərin, dərya kamalın,
Sənin gözəlliyin, sənin camalın,
Alır ziynətini işdən, əməkdən.
Sən dəzgah başında sevildin dünən.
Ani duyğulara, ani hisslərə

Tabe tutulmayır bizim ağlımız.
Bu günün sevgisi, bu günün eşqi,
Yüksək əməllərdə yaranır, ay qız!
Hər gün dəzgahından sən ayrılanda
Bizi sevindirir üzüağlığın.
Gülgün yanağına çökən qızartı,
Deyil əlaməti utancaqlığın,
Yanağın qızarmış çox işləməkdən.
Qəlbindir üzündə o işıqlanan.
Sıxılma, əzizim, yanaqlarında
Zəhmət çırağıdır alışıb yanan.
O çıraqla yazdım bu şerimi mən
İlhama gələrək əməllərindən.

III

Əlində çəkic,
Önündə zindan,
Seyfi işləyir –
Bir an durmadan.

Endikcə bir-bir
Çəkic zindana,
Qığılcım saçır
Dəmir dörd yana.

Şişdikcə görük,
Qızarır kürə.
Qızıl alovlar
Qalxır hündürə.

Qızıl alovlar,
Qızıl alovlar,
Sizdə bu dövrün
Çarpan qəlbi var.

Ona ruh verir
Çəkicin səsi
Gülür üzündə
Odun şöləsi.

Bu od oğlunun,
Oddur hər işi
Odla güləşmək
Olmuş vərdişi.

Qazanır hər gün
Yeni bir zəfər,
Oda od kimi
Cavab verənlər.

Qızır döyüşdə,
Qızır gözləri.
Düşür od üstə
Alnının təri.

Əlində çəkic,
Önündə zindan,
Seyfi işləyir
Bir an durmadan.

***

Toxucu dəzgahların tez-tez xarab olması,
Bəzən zərif sapların dolaşıb qırılması
Onu çox düşündürür... onun fikri budur tək:
Bu köhnə əl üsullu dəzgahları dəyişmək,
Hakim olmaq maşına, bu mürəkkəb dəzgaha!
Günün tələblərinə cavab vermir o daha.
Bu sirrli maşın gərək etsin bizə itaət.
Elə bir şey düzəltmək istəyir ki, o alət –
Toxucusuz sapları versin şüşə çəngələ.
Bunu çoxdan düşünmüş, fikirləşir o hələ.
Seyfi bir söz deməmiş bu barədə heç kəsə
Ancaq hey fikirləşir: bu aləti düzəltsə
Toxucunun da işi yüngülləşər bir qədər.
Yeni alətli dəzgah daha çox məhsul verər.

***

Gecə... gecə tən yarı,
Bir dəstə cavan gəlir daşlı yolla yuxarı.
Küçəni öz başına götürmüşdür cavanlar.
Komsomol iclasından evə qayıdır onlar.
Ürəklərdə qurulub bir şənliyin büsatı.
Nümayəndə seçdilər bu iclasda Nabatı
Mübariz komsomolun yeni qurultayına.
Bakıya yollanacaq bir neçə gündən sonra
Azalırlar get-gedə... çatınca bir döngəyə
Nabat burulur ordan: “gecəniz xeyir” deyə
Bir az gedir... arxadan gəlir ayaq səsləri
– Nabat!

– Kimdir? – deyə qız birdən dönüncə geri
Qarşısında Seyfini görüb duruxur bir an.
– İzin verin ötürüm.
– Yox, sağ olun... bu zaman...
Heç bu vaxt yaraşarmı oğlanla qız?..
– Nə olar?
– Bəs görənlər nə deyər? Bu olmazmı mənə ar?..
Gediniz... – deyə Nabat düzəlir öz yoluna.
Seyfi heyrət içində baxıb arxadan ona
Dönür geri... qəlbini alır minbir düşüncə.
Düşünür sevgisini, düşünür incə-incə:
“Bu qız çox vüqarlıdır, o əyilməz bircə dəm.
Hər şeydən üstün tutur mənliyini bu ötkəm”.

***

Dəzgahlar çıqqıldayır, gurultularla yenə.
Dikib hər kəs başını məşğuldur öz işinə.
Salır şüşə çəngələ Nabat ipək sapları.
Pozulmuş “dünya[5]”larda hörür tək-tək sapları
Gah da boşalan yükü açır öz dəmirindən.
Uzaq olmasın deyə, saplar biri-birindən.
Nabat gözü ucuyla baxır “rəqibə” sarı,
Əlvan arzuları tək keçən əlvan sapları

Toplayınca xanada düşür onlar sahmana.
Arzular bağçasıdır əlvan saplı bu xana.
Dəzgahın bir ucundan çıxınca hazır ipək
Nabat baxır onlara ürəyində bir dilək.

---

[5] Dünya-21 sap birlikdə “dünya” adlanır

Çox gözəl köynək olar oğlançün bu ipəkdən
Necə tutar Seyfini çəhrayı rəng görəsən?
Çox gözəl... rəngini də açar....
                                        Görür bu anda
Seyfinin gözlərini sapların arasında.
O dəzgaha bağlamış bütün əməllərini.
Elə cəld işləyir ki, heç onun əllərini
Sapların arasında görmək olmur bircə an,
Güldən-gülə sıçrayan
Ağ kəpənəklər kimi uçur, uçur əlləri,
Çiçəklərin üstünə şəfəq düşəndən bəri.
Birdən saplar qırılıb, dolaşır bir-birinə
Yan sapları uzanır ana sapın yerinə.
Tez maşını saxlayır tellər gərilsin deyə.
Məlum-məlum o baxır xarab olmuş hissəyə,
Qəlbinin göylərinə enir bulud, enir çən.
Parıldayır gözləri ani şimşəklə birdən
Odur, odur Sürazər sanki dönmüş aslana;
Dayanmadan işləyir, heç baxmadan bir yana,
Heç mənə də baxmayır. Bu gün ötər o məni
Bu fikirlə Nabatım süzərkən "rəqibini"
Görür durmuş önündə Seyfi...
– Xarabmı olmuş?
– Bəli, mən yorulmadım, deyəsən, bu yorulmuş...
– Düzəldərəm bu saat. – Deyə Seyfi bir anda
Sökdü kiçik hissəni...
                                İş tamam qurtaranda
Nabat güldü... çəkildi ürəyindən bulud, çən
Keçdi dəzgah başına "sağ ol" deyə, yenidən.

– Toxtasana bir, ay qız!
– Nə deyirsən?
– Sən dünən
Niyə məni qoymadın ötürməyə... axı mən...
– İndi söhbət vaxtıdır? insafın olsun barı,
Bir güclə çatdırıram görürsən ki, sapları
Qorxuram bu gün ötə Sürazər... get, sən allah,
Axı, bir səbrin olsun....
– Bəli, demək bu dəzgah
Günahkardır. Sapları tez gətirir dolaqdan.
Sənin də söhbət üçün vaxtın olmur bircə an.
Düzəldərəm mən onu, – deyə gülümsəyərək,
Uzaqlaşır Nabatdan. Quş tək çırpınır ürək.

– Bu gün lap qiyamət eləyib Nabat
Yüz metr!.. Planı ödəyib qat-qat.
Doğrusu bu qızda ayrı həvəs var.
– Ay qız, bu möcüzdür.
– Doğrusu, qızlar,
Bilmirəm nə cürə olubdur bu da.
Ancaq dünən gecə gördüm yuxuda
Yarışda aparıb məni Sürazər.
Yamanca pərt oldum, odur ki, səhər
Ayrı cür işlədim uduzmamaqçün.
Doğrusu yamanca qorxurdum bu gün...
– Ey, kaş o yuxudan görəydik biz də,
Paxıllıq doğaydı ürəyimizdə.
Dayan... səni bir gün haylıyaram mən...
Qızlar gülüşərək çıxırlar sexdən.

***

Nabat yetişincə evə görür ki,
Kübra onlardadır...
– Xoş gəldin ay qız
– Sağ ol! eşitdim ki, gedirsən sabah
– Elədir gedirəm.
– Eh, ay vəfasız,
Bəs məni görməmiş gedirsən?
– Yox-yox.
Sabah gələcəkdim...
– Soyuqsan, soyuq.
– Bəs, ay qız, qardaşın Ənvər hardadır?
– Ənvəri bilmirsən? Göylərdə... dünən
Yenidən göylərə qalxdı, Bakıdan
Bizə xoş xəbərlər gətirmək üçün.
Ancaq dönməliydi hesabla bu gün.
Yəqin, hava pisdir o tərəflərdə.
Çox az görəcəksən onu sən yerdə.
Göylərçin doğulub elə bil ki, bu.
– Ürəyim sıxılır, Nabat, doğrusu
Gəl, gedək kinoya...
– Yəqin Ənvərin
Evdə olmaması sıxdı qəlbini.
– Yox, yox.
– Qınamıram mən heç də səni
Deyirsən gedək də...
Bir azdan sonra
Qol-qola gedirlər Nabatla Kübra.
İş vaxtı qurtarır. Bir-bir fəhlələr

Dönür evlərinə... Seyfi mükəddər.
O dönmək istəmir öz mənzilinə
İşləmək, çalışmaq istəyir yenə.
O, təzəcə tapmış işin yönünü.
Burda axşamadək bütün gününü,
Dəzgahın başında keçirir hər gün.
Böyük bir ləzzətdir bu onun üçün.
Yaratmaq eşqilə yanan bir  insan,
Ayrılmaq istərmi öz dəzgahından?
Bir anlıq könülsüz o ayrılsa da
Qəlbini özüylə apara bilməz.
Kiminlə danışsa, haraya getsə
Gözünün önündən dəzgah çəkilməz.
Sıxır ürəyini bir özgə qüssə...
Evdə tək qalaraq düşünməkdənsə
İşləmək, işləmək yaxşıdır deyə
Əzib dəmirləri atır kürəyə.
Ayrılmaq istəmir işdən bir an da.
Həmişə dağlarda qaş qaralanda
Onun da qəlbinə çökür qaranlıq.
Odlu düşüncələr onu bir anlıq
Sakit buraxmayır... lakin əlacsız
Dönür mənzilinə. Burada yalnız
Soyuq düşüncələr olur həmdəmi,
İsidir qəlbini xəyal aləmi.
Ötür cundu quşu yenə uzaqda.
Yandırır çırağı... gülür otaqda
Kiş çayın göyərçin ləpəcikləri,
Evdən sürgün olur gecənin şəri.

Oxuyur radio qonşu otaqda.
Bir könül bülbülü ötür budağda:
De nə qədər çəkim intizarını?
Bu hicran qışının baharı yoxmu?
Yol aça bilmədim sənin qəlbinə
O gözəl diyarın açarı yoxmu?
Deyirsən “səbr elə” gözün qurbanı,
Məndə səbr etməyə dəyanət hanı?
Sənsiz il sanıram hər ötən anı.
Səbr dəryasının kənarı yoxmu?

***

... “Onun qürurundan, təkəbbüründən
Özüm də bilmədən titrəyirəm mən.
Dayanmaq olarmı könül əsəndə,
Sabah o Bakıya gedəcək ... mən də
Gedəydim... ah, Bakı düşdü yadıma,
Odur qüvvət verən qol-qanadıma.
Orda çiçəklənmiş mənim hər arzum.
Gəlsənəm anama bir məktub yazım?!”
Deyə əyləşərək miz arxasına
Yazır... həvəs gəlir yazdıqca ona.
Məktubu qurtarır, durur bir qədər.
Təzə bir niyyətlə nurlanır gözlər.
Ondan da yazmağım verməzmi fayda?
Bəlkə bir məsləhət yazdı anam da.
“... Ana! Bu məktubu gətirən qıza
Yaxşı bax, yamanca sevirəm onu,
Ancaq o bir cavab verməmiş hələ.

Bir əsir eyləmiş eşqə oğlunu”.
O, zərfi bağlayıb qoyur cibinə,
Şirin xəyallara qapılır yenə.
Düşünür... bir azdan qalxıb ayağa
Deyir öz-özünə: – gedim bir bağa,
Ağaclar altında gəzim-dolaşım.
Nədənsə yamanca ağrıyır başım...

Seyfi yavaş-yavaş yola düzəlir
Bir azdan Füzuli bağına gəlir.
Bir qədər ürəyi açılır onun.
Dönmək istəyirkən görür kinonun
Qarşısında böyük bir mərəkə var.
Biletçin növbəyə durmuş cavanlar.
– Hansı kino gedir?
– “Həqiqi insan”.
– Aha... gözləyirdim mən bunu çoxdan
Deyə bilet alıb girir içəri.
Yeni bir həvəslə yanır gözləri.

***

Kino... təyyarələr uçur ekranda
Seyfinin gözləri gülür bir anda
Odur, uçur şahin... lakin bir azdan
Sürünür qar üstə qanadlı insan.
Sürünür yaralı, körpə quş kimi,
Sürünür köksündən vurulmuş kimi.
Havasız, göylərsiz quş yaşarmı heç?
Heyhat... yaraşarmı, yaraşarmı heç

Qanadlı insana yerdə sürünmək?!
Alışır Seyfinin köksündə ürək.
Düşdükcə yadına uçduğu günlər
Göydə buludları qucduğu günlər.
Qırışlar düyülür alnında qat-qat.

***

Pilotu ekranda görüncə Nabat
Anır qardaşını, Seyfini anır
Gizli bir duyğuyla qəlbi odlanır.
Odur, bax, qıçını kəsdilər onun
O göylər tərlanı, göylər oğlunun.
Dodağı altında pıçıldayır o.
“Mən belə bilməzdim ömrün sonunu.
İtirdim, itirdim öz şəhpərimi.
Günlərlə qar üstə mən ilan kimi
Uçmaq arzusilə süründüm. Ancaq
Nə bilim ki, sonum belə olacaq”.
Lakin o yenidən dönür həyata,
İsti çarpayıda o yata-yata
Qanadsız uçmağı məşq edir hər gün.
Geydiyi taxta qıç bu igid üçün
Həqiqi qıç olur... yenidən onu
Alır öz qoynuna bulutlu göylər.
O yenə də uçur. Görüncə bunu
Seyfinin qəlbində doğur al səhər
Düşünür: bəs məndə bu cürət hanı?
Belə olmalıdır sovet insanı!
İnsan qalib gəlir yalnız hünərlə,

Bu gözəl, bu ali düşüncələrlə
O gedir, qəlbində yeni bir həvəs.
Birdən eşidərək o tanış bir səs
Dayanır...
          – Afərin, əsl insandır.
– Gör bizim bu zaman necə zamandır!..
– Deyirəm, ay Kübra, o oğlan kimi
Bizim bu Seyfi də uça bilərmi?
Onun bu eşqini hiss etmişəm mən
Göyləri çox sevir o da... bu sözdən
Seyfinin qəlbində güllər açıldı.
Elə bil qəlbinə nurlar saçıldı.
Getdi onlar ilə qarabaqara,
Ötürdü gizlicə. Ancaq onlara
Qız utanar deyə yaxınlaşmadı,
Dostlar, bunun da var özgə bir dadı.

***

– Nabat, gedirsənmi?
– Bəli.
– Yaxşı yol.
İstidən, soyuqdan ehtiyatlı ol.
Bakı havasına inanmaq olmaz.
Orda seçilməyir qışdan bahar, yaz.
Yenə əziz Bakı düşdü yadıma.
Odur həyat verən hər muradıma.
Mən sevirəm onu öz anam kimi,
Bakı təbiəti, Bakı iqlimi
Məni bala kimi böyütdüyündən

Onun iqlimini götürmüşəm mən.
Bakının baharı, çovğunlu qarı,
Dəli küləkləri, sərt tufanları,
Coşğun gecələri, coşğun səhəri,
Xəzərin dalğalı təlatümləri
Yaşayır inan ki, ruhumda mənim.
Sanki qəlbimdədir əziz vətənim.
– Onunçünmü belə dəliqanlısan?
– Məncə belə olsa yaxşıdır insan.
Coşub daşmayanın arzusu olmaz.
Sükut...
          – Sizə zəhmət olsa da bir az
Bunu – bu məktubu çatdırın bizə.
– Baş üstə, hələlik...
                              – Uğurlar ola.
Maşın səslənərək düzəlir yola.

***

Qurultay... salonda böyük təmtəraq.
Hər kəsin gözündə min hiss, min maraq.
Əyləşib səssizcə dinləyir. Bir-bir
Söz alıb danışır nümayəndələr...
Arzular gül açır dodaqlarında.
Alqış sədaları qalxır bir anda
Adı çəkiləndə böyük rəhbərin.
Salon guruldayır, hər kəs öz dərin
Hissini bildirib qalxır ayağa,
Sanki quşlar verir dodaq-dodağa.
Odur, bax, kürsüdən danışır Nabat.

O yeni vədələr verir ölkəyə
Öz elim, öz bacım, öz qardaşlarım
Bayram libasına bürünsün deyə.
Kim bilir neçəsi burdakıların
Onun toxuduğu parçadan geymiş.
Bacım, bəxtəvərsən, o zər parçalar
Ən əvvəlcə sənin əlinə dəymiş.
Yaratmaq! Nə qədər şirindir bu söz
Ondadır göylərə qalxıb ucalmaq,
Nə qədər şirindir yaratdığının
Uzaqdan baxaraq seyrinə dalmaq!
Bu qəhrəman qızlar sındırdı çoxdan.
Keçmişin o çürük etiqadını.
Vurğun yaxşı demiş: indi kim qoyar
Öz təzə qızına Bəsti adını.
Danış, əziz bacım, danış çəkinmə.
Nədir tələblərin aç söylə bir-bir.
Boyalı sözləri sən tanımırsan,
Hər sözün, hər kəlmən ürəkdən gəlir!
Üç saat, beş saat nitq deyənlər
Duymaz səndə olan səmimiyyəti.
Sadə sözlərinə dodaq büzənlər,
Qəlbində çırpınan təmiz niyyəti,
Dərk edib anlamaz, danış, sən danış!
Gələcək arzundan, işindən danış!
Rus, gürcü, belorus, tatar, erməni
Burda min maraqla dinləyir səni.
Öz ana dilində danışdıqca sən
Gülür ana yurdun çölü-çəməni.

Sənin sözlərini izləyən hər kəs
Öz ana dilində eşidir səni.
Danış heç çəkinmə bu salon, bu yer,
Xitabət kürsüsü özününküdür.
Nə səni burada hədələyən var
Nə də addımını qoçular güdür.

***

Tənəffüs, ətrafda iki-bir-üç-bir,
Qol-qola verərək cavanlar gəzir.
Həyat gülümsəyir gənclik səsindən,
Onların qəlb açan qəhqəhəsindən,
Titrəyir, titrəyir mərmər sütunlar.
Biləsiniz nə qədər xoşbəxtdir onlar.
Çünki bülbül kimi ötür hər ürək.
Nabat mühəccərə dirsəklənərək
Seyr edir gəzişən bu cavanları.
Nə şirindir ömrün bu xoş anları!
O indicə duyur özünü yalnız.
Budur şıx geyimli bir talibə qız
Nabatın önündən ötür... bir anda
Onun gur saçları dalğalananda
Sanki ətir səpir o yandan bəri
Nuxa dağlarının tər çiçəkləri.
Başında ulduzlar yanır göy, sarı.
Onun əynindəki ipək paltarı
Ülgü tək belini kip qucaqlamış,
Belinə şüşədən kəmər bağlamış.
Nabat gülümsəyir, sevincdən bu dəm.

Gülüncə gözündə, bu gözəl aləm
Bir qürur, bir həvəs oyanır onda.
Nə qədər gözəlmiş, ah, doğrudan da
Onun toxuduğu ipək parçalar!
Onun toxuduğu ipək yaraşığı var
O gözəl dilbərin əynində... Bu an
Başqa bir cavan qız ötür yanından.
Onun paltarı da budur, budur, bax
Həmin parçadandır özüdür. Ancaq
Heç gözəl görünmür nədən, nədən bəs
Bu qızın əynində?
                    Bu deyil əbəs.
Ancaq öz vaxtında şirin olur bar,
Bədəni tutmayan o uzun paltar
Bizim zövqümüzü oxşamır bu gün.
Artıq yabançıdır o bizim üçün.
Yenə öz kökündən ayrılmamışdır.
Zaman dəyişsə də onu nə qədər.
Yenə ürəklərdə qalır izləri
Aradan getsə də puç əqidələr.
O uzun balaqlar, uzun ətəklər
Əsrə yaraşmayır, çox gülməlidir.
Məndən inciməsin öz anam, onlar
Dövrün qayçısıyla kəsilməlidir.
Dövrün öz tələbi, öz adəti var.
Uzun balaqların əziyyəti var
Sənə əziz bacım iş zamanında.

Əsrin tələbini qaynat qanında!
Təzə hisslərlə yanmalıyıq biz,
Uzun balaqlara nənələrimiz
Silərdi öz qanlı göz yaşlarını.

***

Qurultay qurtarır gecə tən yarı.
Çöldəki maşınlar alıb qızları
Aparır bir başa mehmanxanaya.
Hər odlu ürəkdə bir yeni dünya.
Çatınca, onları dəmir lift o dəm
Qaldırır yuxarı. Burada aləm
Başqadır. Pərdəli tüllü otaqlar...
Bir zamanlar ancaq “yüksək” qonaqlar
Burda gecələrdi. İndi isə, bax bir
Adi bir fəhlə qız burda dincəlir.

IV

Nabat yoxdur deyə, Seyfi də bir an
Qəlbində iztirab, süstlük duymadan,
Çalışır, çalışır axşama qədər,
Evinə getməyir bəzən gecələr.
Gecəli gündüzlü fikirləşdiyi,
Alətin eşqilə yanır, yaxılır.
Bu dəmir əsrinin dəmir övladı,
Dilsiz dəmirlərə qələbə çalır.

***

Seyfi düzəltdiyi yeni aləti,
Bu gün sevinclərlə qoşdu dəzgaha.
İşlədi... Bu alət özü adamsız,
Sapları xanaya bağlayır daha.
Güldü, Seyfinin də arzusu güldü,
Elə bil könlünə şəfəq töküldü.
Çox xoşuna gəldi baş mühəndisin,
Bu yeni ixtira... Onu həmin gün,
Müdir də çağırıb öpdü alnından.
Dedi: – yetişdirdi səni bu dövran!
Qızlar təbrik etdi onu ürəkdən.
– Sağ ol, Seyfi qardaş, çox sağ ol ki, sən
Bu əl üsulunu dağıdıb qırdın,
Bizim işimizi asanlaşdırdın!
Artıq sən dəzgahın oldun hakimi.
Hələ Nabat bilmir, tez gələn kimi
Onu müjdələmək lazımdır əvvəl.
Dəzgahı görüncə qalacaq məəttəl.

***

Seyfi xəstələnir qəflətən bir gün,
Yığılır başına dostları bir-bir.
– Bəlkə soyuq dəyib.
– Yox-yox səninçin
Bu qədər çalışmaq asanmı gəlir?
Hələ işə çıxma, heç bir şey olmaz.
Yat, dincəl evində, rahatlan bir az.
– Bu gün iki gündür işə getmirəm.

Sıxır ürəyimi gizli bir ələm.
Yaman darıxıram...
– Heç darıxma sən.
Bu gün də Nabatın gəldi Bakıdan.
– Doğrudan?... lap gözəl... nə yaxşı oldu,
Elə bil Seyfinin rəngi duruldu.
– Yamanca düzəltdi bu xəbər səni.
Bu xəbər yəqin ki, dirildər səni.
Deyə yoldaşları gülüşür...
– Daha.
Biz gedək. Tezliklə tapasan şəfa!
– Sağ olun, var olsun ayaqlarınız.
Gedirlər... Xəstəmiz qalınca yalqız,
Düşünür, düşünür ötən günləri.
Birdən Səlim baba girir içəri.
– Əmi, xoş gəldiniz!..
– Sağ olun, nə var,
Bu nə işdir balam, olmasın azar.
Xəstəlik gözləmək olarmı səndən?
Çoxdan xəbərdaram əməllərindən.
Sağ ol, qoçaqsanmış, afərin! – deyə,
Bir limon çıxarıb verir Seyfiyə.
– Sağ olun, əmican.
– İylə limonu.
Şəfa gətirmişəm sənə mən onu.
Tez sağal, başlanır, yenə toy-düyün.
Gəldim sənə deyəm, o birisi gün
Nişan məclisidir bizim Kübranın.
Gələrsən... Sənin də qaynasın qanın.

Sən də bir hazırlaş vaxtındır daha,
Boldur qazancın da şükür allaha.
– Yamanca sızladı əmican, yaram.
– Bilirəm, bilirəm mən xəbərdaram.
– Nədən?
– Eşitmişəm... Seyfi darıxma.
Səbr elə, səbr elə, qəlbini sıxma.
Bir az qız tayfası şıltaq olmasa,
Onun nə ləzzəti ay oğul?..
– Aha...
Demək siz hər şeydən xəbərdarsınız.
Bəs necə?.. bəs necə?.. Oğul, mən yalnız
Öləcəyim günü bilmirəm... yoxsa,
Bunlara nə var ki?.. Şıltaq olmasa
Qız öz qiymətini bilməz... Çəkmə qəm...
– Axı mən nə qədər səbr etməliyəm?
– Səbrlə halva olar, ey qora, səndən.
Bəsləsən atlas olar tut yarpağından.
Seyfi gülümsündü..
– Gülmə, gülmə sən.
Tez-gec sözlərimə haqq verəcəksən.
Hələ bərkiməmiş bu işdə canın.
– Yaxşı, nişanlısı kimdir Kübranın?
– Sizin bu Nabatın qardaşı.
– Paho...
Bu nə yaxşı oldu... Bəs hardaydı o?..
– Orduda, gəldiyi çoxmuş bir ildən,
Özləri tapışıb, tanımırdım mən.
– Qoşa qarısınlar, mübarək olsun.
– Sağ ol, ürəyimiz nəşəylə dolsun.

***

Ayılınca Seyfi yuxudan səhər
Canında rahətlik duyur bir qədər.
Qalxıb yatağından geyinir... Ona
Təzə bir şey kimi gəlir bu həyat.
İnanır təzəcə doğulduğuna.
Bala quşlar kimi açır qol-qanat,
Nə qədər şirindir doğrudan həyat!..
Canın cövhəridir zəhmət hər zaman.
Canı zəhmətilə bərkiyən insan,
Yaşaya bilərmi işsiz, əməksiz?
Onun əllərində açılan hər iz,
Bir şirin zəhmətin nişanəsidir.
Qulağında vuran çəkic səsidir.
Baxıb əllərinə tutulur bir az.
– “Yox-yox! Bu qədər də nazlanmaq olmaz.”
Deyərək düşünür... üç gündən bəri
Onun dəmir tutan, dəmir əlləri,
Yamanca yumşalmış... “Bu nədir mən də
Pambuğa dönürəm xəstələnəndə.
Zəhmətsiz cücəyə dönərmiş insan.
Bəsdir, getməliyəm işə sabahdan.”
Qaydadır həmişə zəhmət çəkənin
Canı polad kimi əyilməz olur.
İpək çarpayıda nazlananların,
Rəngi qürub kimi saralıb, solur.
Heç par-par yanarmı zəhmətsiz oraq?
Dəmirə, kürəyə bənzədir ancaq,

Gördüyü hər şeyi, Seyfi, hər şeyi!
Hissi, düşüncəsi, qəlbi, istəyi,
Onlara bağlıdır, çünki onlara
Düşünür.... Bir qədər keçir... Bu ara
Qapı taqqıldayır...
– Olarmı?
– Bəli.
Nabat Sürazərlə girir içəri.
– Qızlar, xoş gəldiniz!
– Sağ ol, mən dünən
Gəlib eşitdim ki, xəstələnmisən.
Bu gün istirahət günüdür deyə
Gəldik ki, baş çəkək təzə xəstəyə.
Bəs indi necəsən?
– Sağ olun, qızlar!
– Ananı da gördüm.. özünsən ki var.
Bağlama da verdi sənə, budur bax.
– Lap yaxşı, ver bəri bu saat açaq.
– Yox-yox! Qoyun qalsın.
– Əşi ver bəri
Soyutmaq olarmı gəlmişkən yeri...
Deyə Seyfi açır sapları...
– Dünən.
Eşitdim dəzgahı lap düzəltmisən.
Hələ görməmişəm. Ancaq sabahdan,
Başlayıram işə...
                    Elə bu zaman,
Açılır bağlama...
                    Sərilir yerə.

Donluq ipək parça....
Birdən gözlərə
Bir heyrət pərdəsi enir... Bir anda
Seyfi bağlamanı yığışdıranda,
Bir kağız səslənib qatdan sürüşür.
Kağızın içindən bir üzük düşür...
Ağarır, Seyfinin rəngi ağarır.
Nəşəli qəlbini bir bulud sarır.
Tez yerdən götürüb kağızı o dəm
Oxuyur yavaşca qəlbində ələm:

"Oğul, çox bəyəndik bu gələn qızı.
Ağıllı uşağa oxşayır... düzü
Gözəlliyə uyma, vurul kamala.
Çox da vacib deyil, bir də ay bala.
Bizim sevməyimiz, bəyənməyimiz.
Mane olarıqmı xeyir işə biz?!
Lap babdır, uyğundur oğul, özünə.
Bəlkə mən də gəldim bir neçə günə.
Dostların evlənir. Sən qalma dala.
Yazdığın o bağban – Səlim babayla,
Siz verin üzüyü, biz alqışlarıq.
Payız qurtaranda toya başlarıq."
Başını qaldırcaq Seyfi yuxarı,
Gördü Nabat gedir qapıya sarı.
– Dayanın!
– Nə üçün? Getməliyik biz.
Gedirik hələlik sağ ol, xudafiz.
– Nabat, gedərsiniz, dayan bir qədər!

Ay qız, bir səbr elə, deyə Sürazər
Dostunu qaytarmaq istəyir... Ancaq,
Mümkünmü? Mümkünmü onu qaytarmaq?!

***

Seyfi tək qalınca sıxıldı qəlbi,
Bir həmdəm kəsildi düşüncələrə.
– Yox, yox! Neçə olsa sabah mən onu
Başa salmalıyam... Bir də... bir kərə
Ya bunu düzməli, ya da pozmalı!
Yoxsa, pis olacaq bu işin dalı.

***

Düzülmüş yan-yana dəmir dəzgahlar
Odlu bir şeirin misraları tək.
Hər dəzgah başında bir qəhrəman qız
Verir dəzgahlara hüsnüylə bəzək.
Yarışır yenə də qızlar... bu zaman,
Seyfi boylanaraq qarşı qapıdan,

Gəlir yavaş-yavaş Nabata sarı.
Gözündə alışır saf duyğuları.
Düşünür: O indi yəqin bekardır.
Söhbət etməyə də bol vaxtı vardır.
İxtira işini asanlaşdırmış.
Dünənki əhvalat qəlbini qırmış.
Yəqin ki, əlimdən hirslidir yaman.
İndi bacardıqca sakit, mehriban,
Davranıb qəlbini ələ almalı,

Yoxsa yaxşı olmaz bu işin dalı.
– Nabat!
Sükut...
– Nabat!
– Bir sözün varmı?
– Əlbəttə...
– İş vaxtı söhbət olarmı?
– İndi ki, asandır işin... mənə bax.
– Yox, məni söylətmə, dolaşar dolaq.
Axı, dörd dəzgaha baxıram indi.
Eşidincə bunu Seyfi diksindi.
– Paho... Doğrudan da beləymiş... Sənə
Sözüm yoxdur daha... heç əllərinə
Bayaqdan baxmıram. Afərin Nabat!
Halaldır, halaldır sənə bu həyat!
Deyib uzaqlaşır Nabatdan... Onu
Başqa düşüncələr alır qoynuna.
Onun gözlərində artıq bu andan
Bürünür bu aləm özgə bir dona.
Belədir, əzəldən bizim insanlar
Bekar dayanmaqdan xoşlanmaz onlar.
Çünki Nabat bilir onun hər anı,
Bu gün bəzəndirir bir gənc insanı.
Udacaq, bu arzu var isə kimdə.
Keçdi dörd dəzgaha Sürazərim də,
Nabatı qabaqda görüncə dərhal.
Başqa qızları da coşdurdu bu hal.
Onlar da keçdilər iki dəzgaha.
Tək dəzgaha baxan qalmadı daha.

V

Artıq yavaş-yavaş günlər qısalır.
Təbiət yenidən yuxuya dalır.
Saralır o atlas yaşıl budaqlar,
Öz toy libasını soyunur dağlar.
Quşlar qanadlanıb köçür uzağa,
Bir qəriblik çökür hər bağça-bağa.
Yağışlar başlanır… çilənir gövhər
Otların üstünə… Çöllər, meşələr
Çəkir öz üstünə bulutdan duvaq.
Əsir yavaş-yavaş uğuldayaraq,
Qışın ilk carçısı soyuq küləklər.
Artıq qırov qoyur otlar, çiçəklər.
Təbiət danışır bir özgə dillə.
Arxların kənarı dolur xəzəllə.
Soyunur öz atlas, toy libasını
Səlim babanın da gözəl bağçası.
Solsa da yarpaqlar, solsa da güllər,
Solarmı insanın əməl bağçası?
Xeyir!.. O bağçanın tut yarpaqları,
Kim deyir solmuşdur?.. Ey dostum, barı,
Əyninə geydiyin köynəyə bax bir.
O köynək bağbanın əməlləridir!
Kübra, toxuduğu kəlağayıların
Zərif həşyəsinə hey narın-narın
Çəkdi atasının gül ləklərini,
Sarı limonunun çiçəklərini.
Budur bir bağbanın işi, əməli,

Hər zaman başlarda gəzir tac kimi.
Əlvan ipəklərdə, bizim gözəllər,
Gəzincə önündə bir turac kimi.
Açılır ürəyi Səlim babanın.
Gülür xoş diləyi Səlim babanın.

Bu gün onun evi təmtəraqlıdır,
Nişan məclisidir. Gülür qonaqlar.
O yuxarı başda əyləşən gəncin,
Qəlbində min sevinc, min təntənə var.
Birdən Seyfi girir içəri… hamı
Onu gözləyirdi bayaqdan bəri
Seyfini görüncə həmin o gəncin,
Heyrətdən od saçır şahin gözləri,
– Bu sənsən Seyfi can?
– Mənəm, ay Ənvər!
Öpüşür dünənki təyyarəçilər.
– Demək, Seyfi sənsən… işə bax işə.
Bacım səndən deyir evdə həmişə.
– Demək paraşutçün ipək toxuyan
Bacın Nabat imiş?
– Bəli, o zaman
Sənə Nuxamızı tərifləyərdim.
Seyfi can! o vaxtlar kim deyərdi, kim,
Biz bir də Nuxada görüşəcəyik.
Nişan məclisimdə gözlənilmədən…
Sən bir təsadüfə, təsadüfə bax.
Bunu düşünməzdik nə sən, nə də mən.
Əyləşir qol boyun dostlar yan-yana.

Böyük bir ləzzətdir bu hal duyana.
Dünənki odların, fırtınaların
İçindən çıxmışdır bu dostluq, ülfət.
Odlar, alovlardan yaranmış ilkin,
Ən böyük, ən ali, ən saf məhəbbət!
Eşqin, məhəbbətin oddur anası.
Atəşlə yoğrulur qəlbin sevdası.
Sevgisiz arzu da yaranmaz əsla!
Dəmir də dəmirə qovuşur odla.
Odların içində, yaranan dostluq
Əyilməz poladdan çox möhkəm olur.
Xilqəti saf olan təmiz qızıl tək

Nə solur, nədə ki rəngi pozulur.
– Ay qız, bir bura gəl…
                                        Deyərək Ənvər
Çağırır Nabatı – Alışır gözlər
– Utanma, qəlbini açacağam mən.
Özün bilirsən ki, mənim əzəldən
Örtülü işlərlə heç olmaz aram.
Onsuz da hər şeydən mən xəbərdaram.
Səlim baba mənə danışmış bütün…
Nişan məclisimdə siz də, bax, bu gün
Oldunuz adaxlı..
                                        Qızarır Nabat,
Seyfinin gözündə gülür toy-büsat.
– Seyfinin adının evimizdə mən
Hər gün eşidirdim… Nə bilim ki, bu
Mənim öz dostumdur. Keçib iş-işdən…

– Amma lap yerinə düşdü, doğrusu,
Deyib Səlim baba güldü.
                                                Bu ara
Seyfi gözlərini dikib bayıra
Dedi:
– Səlim baba, saralıb bağın,
Hanı budaqlarda gülən yarpağın,
Səlim baba gülüb dedi: – ay oğul,
Qoy yarpaq tökülsün, təki, sən sağ ol.
Sənə qurban olsun bağım, gülşənim,
Ancaq heç unutma, gülümsən mənim
Sən iki sözümə. Biri gələn gün,
Bir də ki… nə deyim bilirsən özün.
Deyirsən "bəs hanı yaşıl yarpaqlar?"
Budur bu qızların geydiyi paltar,
Həmin yarpaqdandır, sən birinci gün
Elə bax bu sözə – buna gülmüşdün.
Sənin o gülüşün yaman gülüşdü,
Mənim sözlərim də yerinə düşdü.

Sən xəstə yatırdın, dedim "çəkmə qəm,
Çatarsan arzuna" sən yenə bu dəm
Güldün. Mənsə dedim: oğul səbr elə,
İnsan arzusuna çatar səbr ilə.
İndi öz kamına yetişdin sən də
Mənim sözlərimə demək güləndə
Sən heç nə bilmirdin...
                                          Güldü qonaqlar.
Bu şən qəhqəhəni əks etdi dağlar.

Səlim baba isə bu dəm cibindən
Çıxarıb üzüyü deyir: – Qızım, sən
Özün gətirmisən Bakıdan bunu,
Bilmədən içində nə olduğunu.
Al, qızım! könlünü bağla sən buna,
Özün öz əlinlə tax barmağına.
Yenidən ucalır şən qəhqəhələr,
Açılır hər üzdə gülgün bir səhər.

## EPİLOQ

Əyləşib mizimin arxasında mən
Yazdım bu şeirimi axşamdan bəri.
Ayılınca gördüm qızıl günəşin,
Düşüb pəncərəmə ilk şəfəqləri.
İpək güllər açan varaqlar üstdə,
İpək tüllər kimi gülür şəfəqlər.
Mənə Nabatımdan xəbər gətirir.
Qanavus örtüklü qızıl üfüqlər.
Ürəyim boşalmış. Qımışıram mən.
Bir qədər razıyam bu gün özümdən.
Danışır radio, danışır asta.
Müjdələr saçılır onun səsindən.
Xoş xəbərlər verir o hər gün mənə,
Bu geniş yurdumun hər guşəsindən.
O yeni müjdəli bir xəbər verir:
"Keçmiş beş dəzgaha bu gündən Nabat".

Eşidincə bunu duruxuram mən.
Aciz qələmimə baxıram mat-mat.
Utandım, doğrusu özüm-özümdən
Zamanla səsləşə bilməmişəm mən.
Zamanla səsləşməz vaxtından əvvəl
Gözəl gələcəyi duymayan ürək
İldırım əsrinə, ildırım kimi,

Sürətlə şığıyan bir qələm gərək!
Dedim öz-özümə ayıbdır mənə.
Əgər bu yazımı oxusa onlar.
Nə qədər xoşbəxtdir qəhrəmanından
Geriyə qalmayan qadir sənətkar!

10 dekabr, 1948 –10 mart, 1949
Nuxa – Bakı.

БӘХТИЈАР ВАҺАБЗАДӘ

# МӘНИМ ДОСТЛАРЫМ

АРХИВ

М. Ф. АХУНДОВ адына
Азәрбајҹан Республика
Үмуми Китабханасы
Инв. №

Бакы * АЗӘРНӘШР * 1949

## МӘНИМ ДОСТЛАРЫМ

Мән өз чарпайымын баш тәрәфиндән
Асмышам достларла биркә шәклими.
Сейр эдиб һәсрәтлә һәр күн онлары
Чырпыныр, чырпыныр көнлүм гуш кими.

Мәни гынамайын, бу садә шәкил,
Бу эвдә һәр шейдән әзиздир мәнә.
Һәр она бахынча гонаг кедирәм
Өмрүмүн ән әзиз, хош илләринә.

Севимли, меһрибан мүәллимләрим
Одур сыра илә башда дүзүлмүш.
Кимиси зилләмиш бахышларыны,
Кимиси бир азча гымышыб күлмүш.

Отурмуш достларым, дәрс йолдашларым
Ашағы чәркәдә будур ян-яна.
Онлара бахдыгча дүшүнәрәм мән.
Бөйүк бир аләмдир бу һал дуяна.

Бәли, бу гайғысыз, бу шән ушаглар
Бир вахт бир синифдә охуярдылар.
Эшги, һәвәсләри, арзулары бир
Һәр шейи бир көрүб, бир дуярдылар.

Инди сәпәләнмиш онлар һәр бири
Кениш вәтәнимин бир кушәсинә.
Арзулар, диләкләр башгалашса да
Бир мәгсәдә кедир һамысы енә.

Һәрдән көрүшәндә йолдашларымла
Мәктәб илләрини яд эдирик биз.
Бу ани сөһбәтдә мәктәб зәнкинин
Екнәсәг сәсини эшидирик биз.

Мәним ән меһрибан чан сирдашымды
Бах бу гырагдакы бу назик оғлан.
Һәмишә бир ердә һазырлашардыг.
Гардаш биләрдиләр бизи чох заман.

Яманча севәрди о тәбиәти.
Яйларда дағларды онун мәскәни.
Инди ағрономдур узаг бир кәнддә.
Һәрдәнбир мәктубла яд эдир мәни.

Бу исә чевикди, чох дирибашды.
Идман ойнамагды онун пешәси.
Көнүллү ордуя язылды ахыр,
Кәлди дөйүшләрдән бир заман сәси.

Бу исә, бу исә бүтүн өлкәдә
Инди ән танынмыш бир бәстәкардыр.
Ширин нәғмәләри дилләр әзбәри,
Өлкәмиздә бөйүк шөһрәти вардыр.

Эй мәним достларым, дәйишмиш бүтүн
Әввәлки һиссимиз, әглимиз артыг.
Дүнән һәр шей үстә күсән, барышан,
Ушаглар дейилик инди биз артыг.

Инди сиз нә гәдәр учалсаныз да,
Мән демирәм һәр күн, бары бир кәрә,
Бахыныз, бахыныз бу шәкилдәки
Башыныз үстдәки мүәллимләрә.

Биздән чох учадыр онларын ери.
Достларым, нә гәдәр учалсаг да биз.
Һәр заман онларын шакирдләрийик
Сабаһ онлар кими гочалсаг да биз.

Март. 1949.

## ЯШЫЛ ЧӘМӘН, АҒАЧ АЛТЫ, БИР ДӘ КИ, ТҮНД ЧАЙ...

Күллү бағча... арх кәнары... бир ахшам чағы,
Отурмушуг көлкәликдә гардашымла мән.
Хышылдадыр, хәфиф-хәфиф күләк әсиркән,—
Башымызын үстүндәки чарпаз будағы.
Бизсә бундан һәзз алараг һей дөнә-дөнә
Нәзәр салыб тәбиәтин әлван һүснүнә,
Данышмырыг... Дәрин сукут чөкүб ортая.
Мүсаһибим баягдандыр буғланан чая
Зилләйәрәк көзләрини дүшүнүр мүдам...
Нәдәнсә чох фикирлидир енә бу ахшам.
— Чайыны ич.

О динмәйир.

— Нә вар, нә олмуш?
Сөйлә көрүм, һалын инди нәдән позулмуш?
Шүкүр олсун гайытмысан севинәк, күләк.
Сән өмрүнүн бағчасына нәш'әдән күл әк!
Диллән, тез ол! Бәлкә бир дәрд үз вермиш сәнә
Енә динмир...
— Чан гардашым, бир дилләнсәнә!
Дедикдә о, тәслим олуб бу инадыма
Дейир:—инди бир һадисә дүшдү ядыма,
Кәдәрләндим... динлә сәнә данышым ону.
Бил дәрдимин, дүшүнчәмин нә олдуғуну:
Чәбһәдә бир еллимиздән достум вар иди.
Мәним үчүн дар күнүмдә гәмкүсар иди...
Архадаки әлли иллик достлугданса бил
Чәбһәдәки бирчә күнлүк мөһкәмдир даһа.
Чүнки орда күн, ай вардыр, йохдур узун ил.

Бу сабаһдан умуд олмур кәлән сабаһа...
Һәрдән сөһбәт эйләйирдик дөйүш ятанда.
Кәләчәклә яшайырдыг һәмән бу анда.
Бир күн достум деди: «бир дә бағчамызда мән,
Чичәкләрин арасындан кечәчәйәмми?
Көлкәликдә, отлар үстә отуруб һәмән
Вәтәнимин түнд чайындан ичәчәйәмми?..»
Буну деди, бир аз кечди... курлады топлар...
Биз һамымыз тез сарылдыг, бирдән силаһа
Дөйүш гызды... гопду бу дәм бир дәли рүзкар,
Ондан сонра мән достуму көрмәдим даһа.
Будур, инди о накамын арзыладығы
Яшыл чәмән, ағач алты, бир дә бу түнд чай.
Лакин өзү йохдур... бу дәм гәлб чәкиб һарай
Демәзми өз гәм гушуна: «даянма шығы».
Көмүлдүмү ач торпаға о нәчиб инсан?
Будур мәни дүшүндүрән баягдан бәри...»
Дейиб гәмли сөһбәтини гуртаран заман,
Көрдүм артыг долухсунмуш онун көзләри.

***

Күләк әсир хәфиф-хәфиф ердә сүрүнүр.
Гәлбимизә һаким олур дәрин бир мәлал.
Союяраг гаршымызда чай буза дөнүр.
Нә ичән вар, нә данышан... Ат чапыр хәял—
Һәмән әскәр, һәмән накам алнында гүрур,
Кәлир мәним көз өнүмдә чанланыб дурур.
Мән санырам инди ону үлви, мүгәддәс.
Чинкилдәйир гулағымда бир аһәстә сәс:
«...Достум! көрән бир дә күллү бағчамызда мән,
Чичәкләрин арасындан кечәчәйәмми?
Көлкәликдә, отлар үстә отуруб һәмән,
Вәтәнимин түнд чайындан ичәчәйәмми?..»

Сентябр 1944.

## МИРВАРИ

Бу күн бизим эвимиз бәнзәйир тойханаја.
Мәнә, бир дә о гуш тәк сүзән гоча анаја
Верир көз айдынлығы бүтүн гоһум гоншулар.
Фәрағында јандығым—о ҹәбһәдән дөнән јар,
Бизи сүзүб, көз алты, күлүмсүнүр астача;
Көнлүмдә һиҹран оду кечир, сөнүр астача.
Шадланырыг вүсалдан бу күн илһам алараг,
Гәм тозуна гәрг олан гәлбимиздә инди, бах,
Әсдикҹә нәш'ә ели чичәк ачыр диләкләр.
Үзләрдә күлүмсүнүб ачылыр бир хош сәһәр.

Сәдагәтли севкилим әскәрлијә кедәркән,—
Бојлу идим онда мән.
Ондан бир азҹа сонра бир гызым олду мәним.
Элә бил ки, күл ачды сон баһарда күлшәним.

Мән бир аздан гачырам јан отаға чапараг
Көрпәмизи кәтириб дејирәм ки:—Јахшы бах,
Буну танызырмысан?..
Көрүб гызы севинҹәк—
Тез о галхыр ајаға... Бизи бир дә сүзәрәк
Гуҹағымдан топ кими гапыр гызы бир анда.
Мәнсә бу дәм күләрәк дејирәм:—ај апардым!
—Нә?
—Мәрҹ чәкишдијимиз галмајыбмы јадында?
Амма сәни горхудуб јаман бағрыны јардым.
Јадындамы он дүзүм мирварыдан чәкишдик?
Оса карыхмыш кими бахыб үзүмә дик-дик
Дејир:—аһа... Индиҹә јадыма дүшдү... демәк

Мән сәнә борчлу галдым. Яхшы, дейин бәс көрәк.
Нәдир ады гызымын?
— Һеч нә.
— Ат зарафаты.
— Доғрусуну дейирәм, һәләлик йохдур ады.
— Нийә?
— Сон мәктубунда язмышдын ки, кәрәк мән,
Нәйим олса адыны өзүм гоям чәбһәдән.
Элә һәмән о вахтлар доғулду бу гызчығаз.
Ил доланды, кәлди гыш, кетди баһар, кетди яз.
Сәндән сораг алмадыг... боғду бизи бу һичран,
Сәнсиз дә биз ушаға ад гоймадыг, о вахтдан
«Атасы гояр» дейә һей көзләдик йолуну.
Чағырырыг һәрәмиз инди бир адла ону.
— Бәли, бәли, билирәм чәкдийиндән һалыям,
Демәк инди көрпәмә өзүм ад гоймалыям?
— Һә...
— Бу саат!
Узадыб көрпәни мәнә сары
— Дейир:—Ала! Ал бу да удуздуғум Мирвари.

Декабр 1944.

## ХАТИРӘЛӘР

Бәли, артыг чохдандыр ки, көрмүрәм о дәһшәтләри.
Алмыш мәни өз гойнуна сакит һәят чохдан бәри.
Лакин һәрдән яда дүшүр енә кечмиш хатирәләр.
Санки топлар курулдайыр гулағымда ахшам сәһәр.
Каһ сәһралар хәялымда күлүмсәйир бир анлыға.
Каһ кечдийим чәнли йоллар бүрүнүр зил гаранлыға.
Каһ да сакит бир мешәдә дейиб күлән достлар енә
Йығылырлар аловланан бир тонгалын дөврәсинә.
Сакит кечә... солмуш көйүн чичәкләри... айса бахыр.
Әрийәрәк о нур чамы аста-аста ерә ахыр...
Мешә кеймиш өз әйнинә гар донуну... һәр ян дүм ағ.
Ишылдайыр алмас кими көз гырпараг яхын, узаг....
Бир достум да сөйкәнәрәк өз вәфалы түфәнкинә,
Чох севдийим бир маһныны арам-арам дейир енә...
Бах, инди дә гулағымда чинкилдәйир һәмин маһны
Рус гардашын пак руһуну мәнә тәлгин едән маһны:
«...Гаранлыг бир кечә... енә выйылдайыр ал күлләләр,
Күләкләрсә бош сәһрада гузу кими мәләр-мәләр...»
Бу үрәкдән гопан сәсләр мә'налыдыр, көр нә гәдәр,
Кәлиб кечир көз өнүмдән о аловлу, одлу күнләр.
Нә шириндир доғрудан да өмрүмүн о өтән чағы,
Биркә әмәл, биркә арзу диндирәрди һәр додағы.
Өмрүн тачы кәнчлийими чәбһәләрдә мән гоймушам.
Инди исә о күнләрә ганад ачан сәйяр гушам.

Бу күн бахыр, сейр эдирәм мән онлары һейран-һейран.
Илләр говур... өмүр гачыр, гочаланда мән бир заман
О севдалы кәнчлийими кәзәчәйәм чәбһәләрдә.
Чүнки мәним дәли көнлүм галмыш инди о ерләрдә.
Мәнимлә бир нәфәс алыр енә һәмин хатирәләр.
Енә топлар курулдайыр гулағымда ахшам сәһәр....

Ноябр 1945.

## САБАҺЫНЫЗ ХЕЙИР ОЛСУН

Зүлмәт кечә әридикчә арам-арам дан сөкүлүр.
Кечир көйүн чыраглары... көй ағарыр... сәһәр күлүр.
Күнәш әлван бояларла зийнәт вериб үфүгләрә
Бойландыгча дан ериндән өрпәйини сәриб ерә,
Юварлаг бир тәкәр кими көй үзүнә вара-вара,
Дейир гадир инсанлара:
— Сабаһыныз хейир олсун!

Бир ағ сачлы гоча алим миз далында әйләшәрәк
Йорулмадан нурландырыр кечәдән та сәһәрә дәк
Элмин сөнмәз чырағилә ачылмамыш сирриләри.
Күлүр онун арзусуна камалынын ал сәһәри.
О сәһәрин шәфәгләри көзләриндә чимә-чимә,
Дейир санки бу алимә:
— Сабаһыныз хейир олсун!

Позуб дәрин сүкунәти ачылдыгча дарвазалар,
Чыхыр әмәк ордулары үзләриндә күлүр баһар
Тәк-тәк аддым сәдалары сәсләндикчә орда-бурда
Чичәк ачыр додагларда:
— Сабаһыныз хейир олсун!

«Вахтдыр» дейә бағырдыгча заводларын о кур сәси—
Хош әмәйин һәр субһ чағы чошан гадир тәнтәнәси,
Мә'дәнләрин үзәриндә ганадыны кәрә-кәрә,
Дейир санки фәһләләрә:
— Сабаһыныз хейир олсун!

1944.

# ТӘЗӘ ШӘҺӘР

Минкәчевирә шәһәр ады верилмәси мүнасибәтилә.

— Ушаглар, ким көстәрәр Минкәчевир һардадыр?
— Мән.
— Буюр кәл.
— Мүәллим, бах бу аралардадыр.
Бу хәритә көһнәдир...
— Дүнән алмышыг, хейир!
— Бәс нә үчүн бурая дүшмәмиш Минкәчевир?
О ки, инди шәһәрдир. Инди орда һәят вар.
Бу тутарлы чаваблар,
Ени бир аләм ачды мүәллимин көзүндә
Дүшүндү: «доғрудан да Минкәчевир дүзүндә
Инди бөйүк әзм илә чырманмышдыр биләкләр.
Бир заман бош сәһрада әсән вәһши күләкләр
Инди орда мөһтәшәм биналарла өпүшүр.
Һәр ағач будағындан хәфиф бир көлкә дүшүр,
Көзәлләшир бу шәһәр.
Һәр эйвандан, һәр эвдән, ишыг кәлир кечәләр.
Боз сәһранын ериндә далғаланыр көй чәмән.
Бир заман саймазяна бу дүздән өтүб кечән
Гушлар ерә энирләр бурда һәят гурмаға.
Онлар пәнаһ кәтирир һәрәси бир будаға.
Шәнләнир көзәл шәһәр хош һәят нәғмәсиндән.
Нечә сур'әтлә ахыб дәйишир заман... Дүнән
Алдығымыз хәритә көһнәдир артыг бу күн».
— Яхшы, дедийин ердә бир даирә чәк өзүн.
Ушаг чәкир...

— Нечә дә асан чәкдин сән буну,
Анчаг нә олдуғуну
Билирсәнми бу ишин? Сөйлә, гузум, буну сән,
Чәкдийин вахт көрдүнмү бәс орда зәһмәт чәкән
Игид гардашларыны?
Онлар илк дашларыны
Гойдулар бу шәһәрин.
(Инсан донур, дуйдугча бунлары дәрин-дәрин)
Де, көрдүнмү кечәләр әйләшиб миз далында
Јохусуну гачырыб, өз кениш хәјалында
Бу шәһәрин әксини чәкән о мүһәндиси?
Јаратмагдыр, а гузум, кама чатдыран бизи.
Де, көрдүнмү орада бахыб күнәшә сары
Тәбиәтә һөкм едән чәсур гәһрәманлары?
Бәли онлардыр, онлар чалышыб ахшам сәһәр,
Букүн, бу даирәни хәритәдә чәкәнләр.

Феврал 1949.

## СӘНИН ТИКДИЙИН ЭВДӘ

Яхшы ядымдадыр ушаглығымыз.
Биз онда меһрибан дост идик. Ялныз
Сән башга севдайла учардын көйә:
— Һәятын мә'насы башгадыр...—дейә.

Бир яратмаг эшги вар иди сәндә.
Сән һара, бирчә ан сусгунлуг һара?
Мән күлә, чичәйә тә'риф дейәндә
Сән ләк дүзәлдәрдин шух фиданлара.

Мән дейәрдим: «Нола чәкилә думан»,
Сәнсә дүшүнәрдин бу ишә чара.
Мән язы һәсрәтлә көзләйән заман,
Сән юва тикәрдин гарангушлара.

Гушлар, гыш күнләри чивилдәшәндә
Онларын дәрдләри оларды дәрдин.
Исти чардагларда, дашлар дибиндә
Ювасыз гушлара юва тикәрдин.

Шимшәк сүр'этилә өтүшдү илләр,
Нәһайәт бөйүдүк, биз яша долдуг.
Алды өз гойнуна бизи арзулар,
Һәрәмиз бир йолун йолчусу олдуг.

Сән мүһәндис олуб бу күн, әзиз дост,
Биналар тикирсән, бағлар салырсан.
Һәр дәфә көрүнчә өз әмәлини
Өзүн өз ишиндән ләззәт алырсан.

Фәрәһлә кечдикчә өз әлләринлә
Тикдийин эвләрин яныңдан һәрдән,
Астача күлүрсән, сәнин чөһрәнә
Күлүш сәпәләнир пәнчәрәләрдән.

Бу күлүш әкс эдир сәнин үзүнә.
Күл, достум, күлүшлә доғсун сәһәрләр.
Тикдийин һәр эвдә, һәр узун кечә,
Яраныр йүзләрлә ени әсәрләр.

Яратмаг нә гәдәр шириндир, эй дост!
Мән дә ярадырам сәнинлә биркә.
Мәним мисраларым дурур чәркәйә,
Биналар тикдикчә сән чәркә-чәркә.

Будур, эйләшмишәм сәнин тикдийин
Бу көзәл, бу кениш отағымда мән.
Нәғмәләр дүзүрәм сәнин шә'нинә
Илһама кәләрәк әмәлләриндән.

Октябр 1948.

# АҒ САЧЛАР

Әзәмәтли бир бинанын гаршысындан һәр кечәндә
Даянырам... Мә'на долу кизли бир һал доғур мәндә.
Бу бинанын сакитанә дурушунда нә һикмәт вар,
Чохдур онун гаршысында мән тәк аяг сахлаянлар,
О мәктәбдир. О анадыр, о шүурлар чырағыдыр.
Дүнялары дәйишдирән пак әмәлләр очағыдыр.
Һәр дашында, кәрпичиндә мәним мин бир хатирәм вар.
Буну анчаг дуя биләр бу һисс илә яшаянлар.
Баягдандыр һейкәл кими даянмышам өз еримдә.
О гайғысыз ушаглығым кәлиб дурур көзләримдә.
Бир заманлар охудуғум синфә бахыр, бахырам мән.
О мә'налы хатирәләр баш галдырыр үрәйимдән...
Аһ, бу синиф! Мәним кими нечәсинә һәмдәм олмуш,
Һәр бучағы ядымдадыр, ким дейир ки, унудулмуш?!
О лөвһәнин гаршысында даянараг арам-арам
Азмы әзбәр шеир дейиб өз-өзүмдән хошланмышам?!
«Ай һавада учан дурна,
Бизи гоюб гачан дурна...»
Инди белә, бир айрылыг мәгамында инләйәрәк
Чинкилдәйир гулағымда бу мисралар мусиги тәк...

***

Кимсә бу дәм бойланараг бахыр ачыг пәнчәрәдән,
Таныйырам ону, достлар, о ағ сачлы гадыны мән.
Бахыб мәчһул бир нөгтәйә хәяләми о далмышдыр?
Аһ, о мәним мүрәббийәм, нә гәдәр дә гочалмышдыр.
О ки, онда чаван иди. Лакин енә о чаванлыг
Итмәмишдир. Кәлин достлар, биз дүшүнәк бирчә анлыг.

Онун әзиз чаванлығы йохдурса да бу күн онда
О яшайыр мәним кими йүз чаванын камалында.
Мән ганадсыз бир гуш идим, ачды мәним ганадымы.
Язмағы да о өйрәтди мәнә, достлар, өз адымы.
Она «бир аз динчәл» дейә янашанда, унутмарам,
О һәмишә бу сөзләри пычылдарды арам-арам:
«Һәр бағбанын өз экдийи ағачындан едийи бар
Она бүтүн зәһмәтинин ачысыны унутдурар».
О ағармыш сачлардаки гүдсиййәтин мә'насы вар,
О яздыгча әлиндәки тәбаширдән гопан тозлар
Ағартмышдыр сачларыны... Санки онлар гарлы гышдыр...
Хейир, мәним ағ күнүмчүн онун сачы ағармышдыр.
Бу һагг ишә кетмиш онун өмрүнүн дә чаван чағы.
Шәрәфлидир эл йолунда гара сачын ағармағы!

Декабр 1946.

## КӨНҮЛ БАҺАРЫ

Әзиз достум, кәнч бәстәкар.
Юрдумуза кәлди баһар.
Дилә кәлсин сәһәр-сәһәр.
Көнлүндәки инчә телләр.
Бас бағрына, чал тарыны.
Диндир көнүл баһарыны.

Чал, нәғмәндә һәят күлсүн.
Чал, динләсин сәни дағлар.
Сән сәсләрин дили илә
Бизә анлат нәдир баһар.

Тар чалыныр арам-арам... чансыз симләр кәлир дилә.
Яз ашиги шейда бүлбүл учуб гонур сары телә.
О симләрдән ахыр санки чәмәнләрә саф чешмәләр.
Будур, будур, чай башында кәсик-кәсик гузу мәләр...
Достумун яз нәғмәсиндә ганат чалан сәсләр күлүр,
Баһар онун үрәйиндән лал симләрә һей сүзүлүр:
Кейир енә өз әйнинә ағ донуну ясәмәнләр.
О биллур шеһ дамласыйла әтирләнир көй чәмәнләр.
Мин бир ширин сәс учалыр бу будагдан, о будагдан.
Гара көзлү көзәл аһу су ичмәйә енир дағдан.
Гарангушлар «вәтән» дейә ана юрда дөнүр енә.
Алма һейва чичәкләнир, көлкә дүшүр дибләринә.

Бағ арасы гыжылтыйла ахыб кедир хырда архлар.
Кол дибиндән пырылдайыб гушлар учур гатар-гатар.
Чичәкләрин арасында нәғмә дейиб долашыр меһ.
Көй үзүнү гучаглайыр гуршаг кими гөвсү-гүзеһ..
Чал эй достум! Чал әзизим! Чал, нәғмәндә баһар күлсүн.
Чал! Тарынын һәр мә'налы пәрдәсиндә дан сөкүлсүн.
Чал гардашым, биз билирик нәғмәндәки мә'на нәдир
Күлкүн баһар бу күн сәнин о илһамлы гәлбиндәдир.

Апрел 1947.

## МӘКТӘБ ШЕИРЛӘРИ

### Илк чығыр.

Яваш-яваш сөкүр дан,
Шәһәр галхыр юхудан,
Дарвазалар ачылыр.
Енә чыхыр йоллара
Зәһмәтин эвладлары.
Онлар ачыр илк чығыр
Тапдаяраг ахшамдан арамсыз яған гары.

Бир аз кечир... онларын ардынча чыхыр чөлә
Ушаглар сәһәр-сәһәр.
Ачылмыш чығырларла онлар да күлә-күлә
Мәктәбләрә кедирләр.

Кет, ай гузум, гәлбини хош зәһмәтә бағла сән.
Ушаглыг өмрүмүзүн ән севимли чағыдыр.
Ачылмыш чығырларла бу күн дәрсә кедирсән
Сабаһ сән ачачагсан бу йолларда илк чығыр.

1947,

# ГЫЗЫЛ МЕДАЛ

Орта мәктәби гызыл медалла ҹуртаран кәнчләрә!

Бах гузум, алдығын о гызыл медал,
Чичәкдир. Дәрмисән зәһмәт бағындан.
Онун шәфәгиндә күлән истигбал,
Сәни хошбахтлыға апарыр һәр ан.

Һаггын вар, әзизим, һаггын вар, өйүн.
Ҹамалын чичәкләр ачан бу күндә.
Илләрлә китаблар үстә төкдүйүн
Көзүнүн нурудур яныр дөшүндә.

Һәят йолларына дүшмүсән артыг.
Габагдадыр бөйүк гәләбән сәнин.
Медалында янан о парлаг ишыг
Рәмзидир ишыглы кәләчәйинин.

Октябр 1947.

## ИЛК ДӘРС

Бу күн ени дәрс или
Башланыр... Сәһәр-сәһәр
Мәктәбләрә йолланыр
Ал янаглы көрпәләр.

О далында чантасы
Кедән ушаға бах бир.
О да көрәсән белә
Мәктәбәми тәләсир?

Севинч сығышмыр онун
Букүнки һәр анына.
Бу күн аяг басачаг
Мәктәб пилләканына.

Бәли, бәли көр нечә
Севимлидир... о бу күн
Һәятында илк дәфә
Кедир бир мәгсәд үчүн.

Пилләләри арамла
Галхыр тәк-тәк юхары.
Һәятда да о белә
Йүксәләчәк юхары.

Бу гәдәм илк гәдәмдир
Арзулар үчүн она.
Бу гәдәм сон гәдәмдир
Шылтаг ушаглығына.

Зәнк чалыныр... ушаглар,
Бир-бир долур синифә.
Бу гәрибә зил сәси,
О эшидир илк дәфә.

Бу сәс ону чағырыр
Дүшүнмәйә, дуймаға.
Бу сәс ону апарыр
Сәадәтли бир баға.

Бу сәс көр бир нә дейир:
«Гәдрини бил һәр күнүн»
Бу күн көрдүйү һәр шей,
Енидир онун үчүн.

Дәрс гуртарыр. Дағылыр
Эвләринә ушаглар.
О да кедир... үзүндә
Ени бир нәш'ә чағлар.

Сән бу күн «А» сәсини
Өйрәнмисән а бала,
Ону сев, сән онунла
Етәчәксән камала.

Мүгәддәсдир, әзиздир
Сән сев бу «А» сәсини,
Бу сәслә язачагсан
Сән «Ана» кәлмәсини.

Биз илк гәләм тутанда
Бу кәлмәни язырыг.
«Ана вәтән» дейәрәк
Өлмәйә дә һазырыг.

Бизим илк дәрсимиз дә
Ана илә башланыр.
Сон дәрсимиз ананын
Әлилә алгышланыр.

Ана, вәтән демәкдир
Гузум, сев бу вәтәни.
Вәтәндир мәктәб ачыб
Бу күн охудан сәни.

Сентябр 1948.

## МӘКТӘБ ЙОЛЛАРЫ

А мәктәб йоллары, мәктәб йоллары,
Сизи бир ан белә унутмадым мән.
Көнлүм мин һәсрәтлә титрәйиб әсир
Һәр дәфә, һәр дәфә кечәндә сиздән.

Ушаглыг күнләрим дүшүр ядыма,
Мәктәбә апарыр мәни бу йоллар.
О көзәл күнләрдә һәр кичик анын
Севинчләрлә долу бир аләми вар!

Һәр күн ики дәфә кечирдим сиздән
Кәссә дә йолуму гар, боран, сазағ.
Кедишим йүнкүлдү, кәлишимдә мән
Һәр дәфә бир пиллә артырдым анчаг.

А мәним ушаглыг достум, һәмдәмим!
Сән, билсән, нә гәдәр мәнә әзизсән.
Һәр кичик дашынын үстүндән, азы,
Атлайыб кечмишәм мин бир дәфә мән.

Камалым күн-күндән пәрвазланараг
Бүтүн каината ачырды ганад.
Элмин сирләрини дуйдугча, мәнә—
Даһа да мә'налы кәлирди һәят.

Ярараг кечмишәм сәнин үстүнү—
Бүрүйән думаны, бүрүйән сиси.
Сәнсән өмрүм бою, һәятым бою
Кетдийим йолларын ән шәрәфлиси!

Инди нә дәрдим вар, нә дә бир гәмим.
Ачылыб өмрүмүн гызыл баһары.
Мәни сәадәтә сиз апардыныз,
А мәктәб йоллары, мәктәб йоллары!

1948.

## ТОХУЧУ ГЫЗ

В. И. Ленин адына Нуха ипәк комбинатынын стахановчу комсомолчусу Барат Исмайыловая итһаф олунур.

### Кириш

Гочаман дағларла әһатәләнмиш
Гәдим бир шәһәри сейр эдирәм мән.
(Илһам улдузлары көнлүмә энмиш
Бу көзәл юрдумун саф көйләриндән).
Яшадым дағларда, гәмсиз, кәдәрсиз,
Бурда долашдығым һәр чығыр, һәр из,
Мәним үрәйимдә изләр бурахмыш.
Дағларын чайлары ганымда ахмыш.
Дөнүб мисралара бу күн бу изләр
Ахыр үрәйимдән, ахыр су кими.
Һәр ердән әзиздир мәнә бу ерләр,
Мән бурда алмышам илк нәфәсими.
Синәси ям-яшыл Хочик[1] дүзүндән
Бу көзәл шәһәри сейр эдирәм мән.
Юрдумун чох гәдим бир чәлалы вар,
Шумал бой сәрвләр, узун чинарлар,
Бу-ерин шөһрәти мәндәдир дейә
Эвләр арасындан учалыр көйә.
Аһ, нәләр көрмүшдүр ағ сачлы Шәки,
Охуюрам онун дөврәсиндәки
Һасардан языны: «Мәммәд Һәсән хан»[2]
Элләр ган удараг йәгин бир заман

[1] Нухада ер адыдыр.
[2] Шәки ханларындандыр.

Чәкмиш бу һасары, белэдир, бәли!
Инсанын зәһмәти, иши, әмәли
Демәк сәрф олунмуш әйләнчәләрә,
Бабамын зәһмәти кетмиш бош ерә!..
Сирли хәзинэдир бу гара торпаг,
Һәр аддым башында бир гайнар булаг.
Сулары биллурдур, чөлләри мәхмәр.
Дағларын дөшүндә дүзүлән эвләр,
Бәнзәйир гырмызы пилләкәнләрә;
Һәр гая, һәр тәпә бир хош мәнзәрә...
Бахырам, бахырам мән дөрд бир яна,
Шәһәри тән яры бөлүб Гурчана[1]
Ахыр Шаһ дағынын әтәкләриндән.
Әзәлдән дағларын вурғунуям мән.
Шәһәрин эн кәнар баш тәрәфиндә
Ағарыр мөһтәшәм бөйүк бир бина.
Онун өз ишләри, өз әмәлләри,
Нә гәдәр ярашыр өз вүгарына.
Кейим-кечим алыр өлкәмиз ондан,
Орда чичәкләнир мин бөйүк диләк.
Тайба-тай ачылан сон гапысындан
Бөйүк машынлара йүкләнир ипәк.
О дағын дибиндә чай гырағында
Тикилән бәндләрлә күлүр чөл-чәмән.
Шәһәрдә алышан улдуз чыраглар,
Алыр өз нуруну бу тикинтидән.
Синәси көй мәхмәр дағын дөшүндә
Ағаран эвләрә, биналара бах.
Бу кениш өлкәмин һәр кушәсиндән
Динчәлир орада һәр ил мин гонаг.
Ағач көтүйүнә, дашлар үстүнә
Мин хатирә язып кәлән гонаглар.
Ичинчә дағларын саф суларындан
Чыраг тәк алышыр бурда янаглар.
Бу иглим дәрмандыр һәр ачы дәрдә,
Бу көзәл дағларда, бу чәмәнләрдә
Бир заман Сәбуһи долашыб янмыш,
Бу көзәл күнләри о заман анмыш!..

---

[1] Чай адыдыр.

Бахырам һәсрәтлә, бахырам енә,
Ганавус тул чәкир көйләр үзүнә.
Күнәш чәкиләндә узаг дағлара..
Шәр гарышан кими тез будаглара
Дырманыр бир анда тоюг чүчәләр.
Бу сакит һалында хәяла бәнзәр
Бизим бу мөһтәшәм дағлар шәһәри.
Көзәлдир ахшамы, хошдур сәһәри.
Дағлар япынчыя бүрүнүр артыг,
Шәһәрин үстүнә энән гаранлыг
Ишыг стунларда чәкилир дара,
Шәһәр бүрүнүнчә чил-чыраглара.
Эвләр арасындан көйләрә сары
Түстү бурумлары галхыр юхары.
Яныр һәйәтләрдә енә очаглар,
Охуюр сәс-сәсә вериб ушаглар.
Дөнүрәм мәнзилә арам-арам мән,
Сығышмыр көксүмә көнлүм фәрәһдән.
Көрүрәм, көрүрәм кедир узагдан
Бизим Сәлим баба—о гоча бағбан.
Янында да бир кәнч. О кимдир, көрән?
Илк дәфә көрүрәм бу чаваны мән.
Сәлим баба илә саламлашараг
Өтүрәм. Севинчим ашыб-дашараг
Көксүмә сығышмыр, тәләсирәм мән,
Мин һәвәс, мин истәк кечир көнүлдән,
Чағлайыр ганымда чайларын сәси,
Доғур үрәйимдә язмаг һәвәси.

I

Гыш гуртарыр... Ер чанланыр көз яшыны силә-силә.
Чана кәлир гарлы дағлар баһарын хош нәфәсилә.
Яваш-яваш әридикчә гузейләрдә ағаран гар,
Һарай дүшүр дәрәләрә, нәрилдәйиб дашыр чайлар.
Күн әйилиб яваш-яваш юварланыр гәрбә сары.
Бу дәм кәлир эл йолуйла бир кәнч оғлан баш юхары
Шаһин көзлү бу чаванын элиндә бир бағлама вар,
О ерийир аста-аста бахышында бир интизар.

Нэдэнсэ о чох лэнк кедир шыггылдайыр гычы һэм дэ,
Һэмэн сэсдэн бэлкэ кизли эзаб чэкир о бу дэмдэ.
Бэли онун көзлэриндэ нараһат бир үрэк яныр.
Узун йохуш, дашлы йоллар узандыгча һей узаныр.
О илк дэфэ көрүр, санки бу шэһэри... Бахыр-бахыр...
Көзлэриндэ шө'лэ чэкиб мараг долу һэвэс ахыр.
О бойланыр гэриб-гэриб этрафына, элэ бу ан
Бир ағ сачлы, ағ саггаллы гоча кечир лап янындан.
— Эми, ипэк комбинаты һарададыр?
— Нечэ бала?
— Танымырам буралары. Набэлэдэм бу маһала.
— Анчаг, оғул, күн эйилиб, иш гуртарар инди йэгин...
Комбината һэлэ чох вар, йол һэм узаг, һэм дэ чэтин,
Кедэк бизэ...
— Сағ ол, эми!
— Сағыг, сағыг, кедэк.
— Сағ ол!
Меһманхана йохму мэкэр?
— Бу нэ сөздүр, кедэк оғул,
Шүкүр олсун тэкнэмиздэн эксик дейил чөрэйимиз,
Юрдумузун шэ'ни гэдэр кенишдир кен үрэйимиз.
Гоча чэкиб о чаваны дүз апарыр өз эвинэ.
Йол узуну давам эдир сорғу-суал, сөһбэт енэ.

***

Ахшам дүшүр, гаш гаралыр, көлкэлэнир сыра дағлар,
Сылдырым дағ дөшлэриндэ улашыр ач ялгузаглар.
Алышдыгча үфүглэрдэ күнэш адлы көзэл пэри,
Шө'лэлэнир Гурчанада онун гызыл шэфэглэри.
Сэрин-сэрин көлкэ дүшүр һэйэтлэрэ һэр будагдан.
Архасынча тоз думаны энир нахыр, гаршы дағдан.
Бир андача түстүлэниб һэйэтлэрдэ яныр очаг
Һамы бир-бир ишдэн дөнүр... эвэ долур оғул-ушаг.
Гызлар кэлир булаглардан беллэриндэ күйүм, сэһэнк
Башлардаки кэлағайлар һэр бириси чалыр бир рэнк.
—Ай гыз, Күбра, даянсана, даян мэн дэ чатым, Күбра!
— Тэлэсирэм, һэлэ мэн од салмамышам самавара...
— Яхшы, даян, биркэ кедэк.
— Һэ, ди тез ол...

Кедир онлар...
Һәр биринин үрәйиндә мин арзусу, мин камы вар.
Онлар чатыр эвә артыг... айрылырлар чох меһрибан.
Атасыны бир кәнч илә көрүб Күбра дурур бир ан.
— Гызым, гонаг Бакыдандыр, таныш олун.
— Сейфи!
— Күбра.
— Анан һаны?
— Инди кәләр...
— Тез ол, гызым, тез ол, даһа...
Оғул, сән дә динчәл бир аз, йолдан кәлән йорғун олар.

***

Бир аз сонра пыггылдайыр миз үстүндә ағ самавар.
Бүтүн күлфәт топлашынча бөйүк мизин әтрафына,
Чай сүзүлүр. Бир гуш кими орталыгда сүзүр ана.
Архасынча далғаланыр күл-чичәкли калағайы;
Сүфрәйә мин бәзәк верир Ләнкәранын рәнкин чайы.
Ейир, ичир бүтүн күлфәт... Радио да динир накаһ
— Икид Нуха ипәкчиси Набат үчүн «забил сәкаһ»
— Оғул, бәлкә эшитмисән, бу гыз мәшһур тохучудур.
Комбинатда ән биринчи, ән биринчи уста, будур.
Аста-аста һаваланыр гәлб охшаян тарын сәси.
Азәрбайчан дағларындан ахан чайын зүм-зүмәси,
Далғаланыр... нә ширindир. Нә доғмадыр бу сәс бизә.
Бу сәс ана лайласыйла йол ачмышдыр гәлбимизә.
Биз бу сәслә һәм учмушуг, бағланмышыг һәм дә ерә.
Биз бу сәслә говушмушуг әл иришмәз диләкләрә.
Биз бу сәслә бәсләмишик севкимизи даим чанда,
Биз бу сәслә дәрдләшмишик бә'зән эвдә тәк оланда.
Һамы гулаг кэсилмишдир... Пәрдәләрдән гопан налә,
Өз сәсийлә һәр үрәйи салыр бу ан мин хәялә...
— Оғул бир дин, даныш көрәк ораларда нә вар, нә йох?
— Сағлығыныз.
— Өз эвиндир, дурма белә сојуг-сојуг.
Чохдандыр ки, кетмәмишәм, инди Баки нечәдир бәс?
— Чох яхшыдыр.
— Боллугдурму?
— Бәли, бәли, тапыр һәр кәс

Истэдийи һэр бир шейи... мүһарибэ унудулмуш
Мағазалар ағзыначан һэр чүр малла енэ долмуш.
— Олсун, оғул, боллуг илэ кечсин бизим һэр чағымыз,
Көрүм одсуз олмасын һеч бизим долу очағымыз:
— Сэнэтиниз нэдир, эми?
— Бағбанам өз һэйатимдэ.
Ипэкчилик мэктэбиндэ муэллимэм, оғул, һэм дэ.
Нэдэнсэ, мэн бу сэнэтдэн зөвг алырам, оғул, инан.
Ипэкчилик мирас галмыш бизэ ата бабамыздан.
Бу гызым да калағайы устасыдыр. Инди мэни
Ярыша да чағырмышдыр. Чох севирик бу пешэни.
— Пешэн нэдир бэс сэнин?
— Мэн чилинкэрэм.
— Чох пакизэ.
Бу пешэ чох кэрэк олур доғрудан да бурда бизэ.
Тохучулуг дэзкаһлары хараб олур... Бу вахт бэ'зэн
Иш даяныр... яхшы уста тапылмайыр. Йэгин ки, сэн
Бу ишдэ чох ишлэмисэн. Чох тэчрүбэн олсун кэрэк.
— Бэли, бир аз ишлэмишэм мүһарибэ илинэ дэк,
Ордудаса охуяраг тэйярэчи олдум, эми.
Эзэл күндэн дэмир олмуш һэятымын илк һэмдэми.
Узун сүрэн бир дөйүшдэ тэйярэми вурду дүшмэн.
Парашутла мачал тапыб атдым ерэ өзүмү мэн.
Анчаг гычым шикэст олду. Эһ, нейлэйэк, кечиб ондан...
Мэнэ ясаг элэдилэр учмағы да о замандан.
Ағыр, ачы дүшүнчэлэр үрэйимэ олду һэмдэм,
Аһа, демэк мэн бир даһа көй үзүндэ сүзмэйэчэм!..
Бу фикирлэ алышдыгча көйлэр иди дэрдим-сэрим,
Һэм үрэйим зэифлэди, һэм позулду эсэблэрим.
Нэ бэлалар чэкдим, эми, бу вас-васы һэкимлэрдэн.
Тапшырдылар кэрэк дағлыг районларда яшаям мэн.
Мэним Энвэр адында бир чэбһэ достум вар иди. О
Буралыйды... бэлкэ опу таныярсан?
— Йох, доғрусу
Бу ад мэнэ таныш кэлмир. Дағыныгдыр шэһэримиз,
Бэлкэ дэ дағ тэрэфдэндир, танымарыг онлары биз.
— О һэмишэ бизэ орда бу ерлэрдэн данышарды.
Һэрдэн дэ бир охуярды... чох көзэл дэ сэси варды.
Бу мэзэли достумузу, доғрудан, чох севэрдик биз.

Онун илә һәр бир заман хош кечәрди күнләримиз.
Госпиталда мән ятанда о яныма кәлди бир күн,
Башлады тез зарафата деди:—достум, чаным үчүн,
Сәни бачым хилас этди. Дедим—нечә, де көрәк бир.
Деди:—сәни хилас эдән о парашут ипәкдәндир,
Бачым да ки тохучудур... Биз күлүшдүк деди: —Бәли,
Бу күн сәнә ярарлыдыр Нухамызын һәр әмәли.
О чәкдийин түтүнү дә кичик бачым әкмиш орда.
Биз беләчә күлүшәрдик, күлүшәрди йолдашлар да.

***

Сөһбәт гызыр... габагларда чай соююр әгрәб дөнүр,
Кечә кечир... яваш-яваш самаварын оду сөнүр.
Шәһәр ятыр... бир сакитлик алыр бу дәм бағча-бағы,
Бир аз сонра сөнүр Сәлим бабанын да кур чырағы.

***

Ятыр Сейфи, көрдүкләри хәял кими кәлир она.
Дүнән әзиз Бакыдайды, бу күн һарда? Эһ инсана
Нә вар ки, о гуша бәнзәр... бүлбүл өтүр чан бағында,
Гурчананын шырылтысы сәсләндикчә гулағында...
Бурда ени бир аләм вар. Ени сәсләр эшитдикчә
Тамам башга бир шей кими кәлир она инди кечә.
Көпәкләрин улашмасы, хоруз баны, чайын сәси,
Чичәкләрин арасында дағ елинин инләмәси,
Кечәнин хош маһнысы тәк сәсләндикчә гулағында,
Үзүр Сейфи әфсанәви бир аләмин гучағында.

***

Кечәнин бир мәгамында накаһаны гопан сәсдән
Дик атылыр Сейфи...
— Аман, бу нә сәсдир, һардаям мән?
Дейә бирдән о атылыр пәнчәрәйә... бир дә, бир дә
Чахыр шимшәк... чимир нурда уча дағлар, дәрәләр дә,
Атәш ачан топу аныр, атәш яғыр көзләриндән.
Санки уча, сылдырымлы дағлар гопур өз ериндән,
Нәрилдәйиб, курулдайыб мин гәһ-гәһә чәкир көйләр.
Илдырымын гылынчындан энир ерә бир ан сәһәр.

Пәнчәрәләр зағ-зағ әсир, шәфәг дүшүр шүшәләрә,
Әкс эдәрәк курултуну гоча дағлар чәкир нә'рә.
Бир аз кечир... шырылтыйла кәлир яғыш... кечә яры
Таггылдадыр долу яғыш эвләр үстә сахсылары.

⁂

Яваш-яваш сөнүр көйдә, көйүн алмас чичәкләри.
Кениш чөлләр пычылдашыр, әсир сәһәр күләкләри.
Титрәдәрәк сәһәр ели пәнчәрәнин пәрдәсини
Өпүр бизим Сейфинин дә тәбәссүмлү чөһрәсини.
Сәһәрин хош нәвазиши дағыдараг юхусуну
Өз һүснүнү сейр этмәйә дә'вәт эдир бу дәм ону.
О кейиниб чыхыр тезчә сармашыглы эйвана... аһ,
Нә көзәлмиш бизим ерләр... дәйилмишәм бундан акаһ!
Биз һәлә дә танымырыг өз меһрибан өлкәмизи,
Нәвазишкар нәфәсилә бәсләмишдир бу юрд бизи.
— Салам.
— Салам, сабаһыныз хейир олсун... атан һаны?
— Бағчададыр. Дейир о да кәлсин бура... кәл бағчаны
Сейр элә бир...—дейә оғлан күлүмсүнүр...
кедир онлар,
Кедирләр дар бир чығырла гәлби күмраһ бу чаванлар.

⁂

Тәбиәт чох көзәл олур чыхан заман гарлы гышдан;
Сейфи кәлиб көрүр бағда Сәлим баба кур яғышдан
Учурулмуш ләкләрини дүзәлдәрәк күлүмсүнүр,
Йәгин онун гәлби инди фәрәһиндән дағa дөнүр.
— Салам.
— Салам. Кечә яхшы ятыбсанмы?
— Чох сағ олун.
— Оғул, бурда—бу бағчада һәр ағачын, һәр бир колун
Мән чәкмишәм зәһмәтини... бир һечәм мән бу зәһмәтсиз,
Бир зәһмәтин чығырыдыр бу алнымда күлән һәр из.
Көрүрсәнми нечә күлүр пар-пар янан бу будаглар,
Онларла бир күлән гәлбим, онларла да биркә ағлар.
— Бунлар нәдир белә, әми?
— Бунлар чәкил ағачлары.
Бу торпағын ән хош бары,

Бу көрдүйүн ағачлардыр... бәсләйирәм ону чан тәк,
Мән онларын мейвәсини көрәчәйәм әтәк-әтәк.
Сән бу атлас ярпаға бах; бу атласдыр, бу ипәкдир.
Бу ағачын ярпағыны бизим гызлар кейәчәкдир.
Сейфи күлдү...
— Күлмә, оғул, өз көзүнлә көрәчәксән бунлары сән.
Бу барәдә чох көзәлчә бир мәсәл вар та гәдимдән:
«Сәбрилә һалва олар, эй гора, сәндән,
Бәсләсән атлас олар тут ярпағындан».
Заман яшыл бир чәннәтә дөндәрмирми бош торпағы?
Сабаһын ал ипәйидир бу күнүн бу тут ярпағы.
Та гәдимдән бу көзәл юрд учалдараг өз шаныны
Ипәйилә бәзәмишдир көзәлләрин кәрданыны.
Узаг-узаг өлкәләрә көндәрилмиш ипәк тайлар—
Алма янаг көзәлләрин тохудуғу калағайлар.
Бөйүк шөһрәт газанмышды бир заманлар бу чөл-чәмән,
Бәли бир вахт хәлифәнин сарайына зинәт верән
Ипәк түлләр, зәр пәрдәләр Шәкидән дә дашынармыш.
Зәриф Шәки ипәйинин бөйүк ады-саны вармыш.
Бир заманлар фирәнкиләр эшидәрәк бу шөһрәти
Бағладылар бабаларла бир тичарәт үнсиййәти.
Пул ахдыгча Франсадан дәвәләрә мал галанды,
Юрдумузун ал ипәйи Авропада далғаланды.
Таландыгча юрдун вары, элләр чәкди кизли һарай.
Анчаг бу күн эвладымын тохудуғу ағ калағай,
Өзкәсинин дейил артыг, өз башында далғаланыр.
Инди мәним ана юрдум, нә сатылыр нә таланыр.

---

Кедәк, оғул, сәнә лимон бағымы да көстәрим мән.
Бизим көзәл Нухамызы сән чох тезчә севәчәксән.
Чатачагдан атлаяраг етиширләр бағa онлар,
Яшыл донлу бу бағчада тамам өзкә бир аләм вар.
Ири лимон дибчәкләри гатар-гатар чәркәләнмиш
Яшыллығын гучағына санки көйдән нур әләнмиш.
Әлван-әлван чичәкләрдән бағча кейиб көзәл бир дон
Улдуз кими бәрг вурур көй будагда сары лимон.

Сары лимон, сары лимон,
Сарылығын нәдән олур?

Сән бычагла кәсиләндә,
Тумурчуғун дән-дән олур.
Биһуш эдир этрин бизи,
Мәст еләйир гәлбимизи.
Чичәкләйир будагларын
Яз башыдыр ярын сәнин.
Нә көзәлсән... гыш да, яз да
Әксик олмаз барын сәнин.
Чох севирсән илк баһары,
Союг сәнә дүшмән олур.
Сөйлә, лимон, сөйлә нәсән?
Доста ширин һәдиййәсән.
Сән о гәдәр әзизсән ки,
Эвләр сәнә мәскән олур.

Сәлим баба көстәрәрәк ағачлары она бир-бир
Данышдыгча, һәр будаға нәзәр салыб фәрәһләнир:
— Бах, бу чешид ә'ла Батум чешидидир, яранышдан
Бизим ердә—бу сәмтләрдә етишмәзди һеч бир заман
Пейвәнд эдиб етишдирдим, ону исти һавада мән,
Бәли, бәли, «биз мәрһәмәт көзләмирик тәбиәтдән».
Онун сабит ганунуну дәйиширик биз, а бала,
О нәдир ки, һөкм элиййә инсандакы бу камала?
Бәсдир даһа кедәк, оғул, кедәк ичәк чайымызы,
Яратмагла яшамалы вәтәнимин оғлу, гызы.

## II

Чоловек—это звучит гордо
*М. Горки.*

Дүзүлмүш ян-яна дәмир дәзкаһлар.
Одлу бир шеирин мисралары тәк.
Һәр дәзкаһ башында бир гәһрәман гыз
Верир машынлара һүснийлә бәзәк.
Һәр шейә зинәтдир яранышындан
Бу гоча дүнянын бәзәйи инсан.
«Учурмаг асандыр, яратмаг чәтин»
Яратмаг шәнидир бәшәриййәтин.
Бу ниййәт биздәдир... Биздә һәр инсан
Яратмаг эшгилә яшайыр һәр ан.

Инсанда яранан бу али ниййәт
Кимин әлләрилә язылды илкин?
Эй доғма юрдумун гәһрәман гызы,
Бу ниййәтлә күлдү сәнин истәйин!

Набат! Сән зәһмәтә көнүл бағладын,
Күлдү арзуларын бир чыраг кими.
Илһама кәтирмиш бу күн, эй бачы,
Сәнин әмәлләрин мәним гәлбими.

Эй әсрин эвлады, эй әсрин гызы,
Әсрин нәбзи вурур гәлбиндә сәнин.
Бир аддым габаға ерийир һәр күн
Сәнин зәһмәтинлә ана вәтәнин.

Сәни иш башында көрдүкчә, мәним
Кәлир гулағыма кечмишин сәси—
Өмрүнү мәтбәхдә сүрән нәнәнин
Яшмағы алтында инилдәмәси.

Азәрбайчан гызы! Нә тез етишдин
Сән бу мәртәбәйә, бу көзәл күнә.
Сәни ким галдырды, өзүн сөйлә бир,
Заманын фөвгүнә, дөврүн фөвгүнә?

Сәнин додағына яддыр сызылты,
Әмәк нәғмәләри кәзир дилиндә.
Бабаны дағларда вуран илдырым
Бу күн эйләнчәдир сәнин әлиндә.

Нәнәнин чәһрәдә әйирдийи ип,
Өз дәрдийчин белә кәлмәзди кара.
Сәнин дәзкаһынса күндә йүз гызы
Бүрүйүр ән зәриф ал либаслара.

Чәһрә сызладыгча, сызларды нәнән,
Бир хош күн көрмәди о языг гары.
Батырды чәһрәнин инилтисини
Сәнин дәзкаһынын курултулары!

Сән мөһтач дейилсән бу күн һеч кәсә.
Нәләр кәлиб кечир сәнин әлиндән.
Тәмиз арзуларын, хош диләкләрин,
Чан алыр өз ишин, өз әмәлиндән!

«Әзиз бачыларым бәзәнсин» дейә
Вахты итирмәдән сән чалышырсан.
Бу бөйүк мәгсәдә сәнин чатмағын,
Минләри чатдырыр мәгсәдә һәр ан.

Халгын диләйидир сәнин диләйин.
Бөйүк бир арзуйла вурур үрәйин.

***

Бирдән зәнк чалыныр... дәйишир аләм,
Күнорта емәйи башланыр бу дәм,
Гызлар топлашараг ики бир, үч бир
Емәйә башлайыр...

— Ай гыз Сүразәр!
Енә сәни кечмиш дейәсән Набат.
— Һәмишә бир чүрә кетмәз ки, һәят
Гой олсун, пахыллыг әләмирәм мән.
— Яланса...
— Чәкинмә, достум, гибтәдән
Гибтә ирәлийә апарыр бизи,
Һәвәслә долдурур үрәйимизи.
— Набат лап дүз дейир... анчаг Сүразәр
Дилхордур... учалыр шән гәһ-гәһәләр.
Әлиндә ачары Сейфи бу заман
Кирир гаршыдакы бөйүк гапыдан.
Бир-бир йохлаяраг о дәзкаһлары
Кәлир яваш-яваш гызлара сары.
— Салам.
— Салам Сейфи! Нечәсән?
— Сағ ол!
— Доғрудан Сейфимиз оғулдур—оғул.
Дейә күлүмсүнүр азча Сүразәр,
Енидән башланыр шән гәһ-гәһәләр.
— Нийә күлүрсүнүз?.. о кәлән күндән
Дейин һансы дәзкаһ даянмыш? Дүнән

Енә дә гырырды саплары дәзкаһ,
Һәлә чәнкәли дә сынмыңды, валлаһ
Чағыртдырдым ону, кәлди, бир анда
Таза чәнкәл салды. Доғрусу онда
Айры чүр һәвәс вар. Һәм дә ки, Набат
Онун үрәйинә верир гол-ганад.
Бу сехдән әл чәкмир гаравул кими...
Гызарды бу сөздән Набат пул кими,
— Доғрусу, бу гәдәр тәкәббүр олмаз,
Мәрһәмәт олмур ки, сәндә дә бир аз
Ачылсын язығын гашы-габағы.
Чәкирсән гәлбинә дағ үстдән дағы.
— Дил оту емисән, бәлкә, бу күн сән?
Бу дәм зәнк чалыныр... учур енидән
Зәһмәт сәмасында бизим бу гушлар.
Онлар чәркәләнир тез гатар-гатар.
Дәзкаһлар курлайыр. Иш гызыр...
— Сәни,
Өтдүм... сүзүр гызлар бир-бирләрини.
— Нечә сап?
— Мән он дөрд.
— Мәнсә он алты.
Сүразәр, Набаты сүзүр көз алты
Гайышлы чархларын чак-чук сәсиндән
Күчлә эшидилир бу сөзләр. Бә'зән
Бармаг һесабилә данышыр онлар.
Бу ердә сөһбәтин нә мә'насы вар.
Ярышын достларым, ярышын һәр күн
Ишини севәнләр кәләчәк үстүн.
Севки! Дүня гәдәр мә'на вар онда,
Вәтән гаршысында, эл гаршысында
Һәр күн вермәлийик имтаһан, эй дост
Ярыш мейданыдыр бу чаһан, эй дост!
Һәр гызын бу сехдә өз дәзкаһы вар.
Сүразәр Набатла ярышыр. Онлар
Ән яхшы устадыр. Онлардан башга
Һеч кәс ишләмәйир ики дәзкаһда.

Ярышын, ярышын әзиз бачылар
Сизин әлинизлә ярақыр баһар.
Набат! архаланма зәфәрләринә,
Зәфәр газандыгча сән чалыш енә.
Һеч кәси көзләмә, эл сәни көзләр,
Доғсун зәфәриндән ени бир зәфәр.
Сәнин әмәлләрин, дәря камалын,
Сәнин көзәллийин, сәнин чамалын,
Алыр зийнәтини ишдән, әмәкдән.
Сән дәзкаһ башында севилдин дүнән.
Ани дуйғулара, ани һиссләрә
Табе тутулмайыр бизим ағлымыз.
Бу күнүн севкиси, бу күнүн эшги,
Йүксәк әмәлләрдә ярақыр, ай гыз!
Һәр күн дәзкаһындан сән айрыланда
Бизи севиндирир үзүағлығын.
Күлкүн янағына чөкән гызарты,
Дэйил әламәти утанчаглығын,
Янағын гызармыш чох ишләмәкдән.
Гәлбиндир үзүндә о ишыгланан.
Сыхылма, әзизим, янагларында
Зәһмәт чырағыдыр алышыб янан.
О чырагла яздым бу ше'рими мән
Илһама кәләрәк әмәлләриндән.

III

Әлиндә чәкич,
Өнүндә зиндан,
Сейфи ишләйир—
Бир ан дурмадан.

Эндикчә бир-бир
Чәкич зиндана,
Гығылчым сачыр
Дәмир дөрд яна.

Шишдикчә көрүк,
Гызарыр күрә.
Гызыл аловлар
Галхыр һүндүрә.

Гызыл аловлар,
Гызыл аловлар,
Сиздә бу дөврүн
Чарпан гәлби вар.

Она руһ верир
Чәкичин сәси
Күлүр үзүндә
Одуң шө'ләси.

Бу од оғлунун,
Оддур һәр иши
Одла күләшмәк
Олмуш вәрдиши.

Газаныр һәр күн
Ени бир зәфәр,
Ода од кими
Чаваб верәнләр.

Гызыр дөйүшдә,
Гызыр көзләри.
Дүшүр од үстә
Алнынын тәри.

Әлиндә чәкич,
Өнүндә зиндан,
Сейфи ишләйир
Бир ан дурмадан.

***

Тохучу дэзкаһларын тез-тез хараб олмасы,
Бэ'зэн зэриф сапларын долашыб гырылмасы
Ону чох дүшүндүрүр... онун фикри будур тэк:
Бу көһнэ эл үсуллу дэзкаһлары дэйишмэк,
Һаким олмаг машына, бу мүрэккэб дэзкаһа!
Күнүн тэлэблэринэ чаваб вермир о даһа.
Бу сиррли машын кэрэк этсин бизэ итаэт.
Элэ бир шей дүзэлтмэк истэйир ки, о алэт—
Тохучусуз саплары версин шүшэ чэнкэлэ.
Буну чохдан дүшүнмүш, фикирлэшир о һэлэ.
Сейфи бир сөз демэмиш бу барэдэ һеч кэсэ
Анчаг һей фикирлэшир: бу алэти дүзэлтсэ
Тохучунун да иши йүнкүллэшэр бир гэдэр.
Ени алэтли дэзкаһ даһа чох мэһсул верэр.

***

Кечэ... кечэ тэн яры,
Бир дэстэ чаван кэлир дашлы йолла юхары.
Күчэни өз башына көтүрмүшдүр чаванлар.
Комсомол ичласындан эвэ гайыдыр онлар.
Үрэклэрдэ гурулуб бир шэнлийин бүсаты.
Нүмайэндэ сечдилэр бу ичласда Набаты
Мүбариз комсомолун ени гурултайына.
Бакийэ йолланачаг бир нечэ күндэн сонра
Азалырлар кет-кедэ... чатынча бир дөнкэйэ
Набат бурулур ордан: «кечэниз хейир» дейэ
Бир аз кедир... архадан кэлир аяг сэслэри
— Набат!
— Кимдир?—дейэ гыз бирдэн дөнүнчэ кери
Гаршысында Сейфини көрүб дурухур бир ан.

— Изин верин өтүрүм.
— Йох, сағ олун... бу заман...
Һеч бу вахт ярашармы оғланла гыз?..
— Нә олар?
— Бәс көрәнләр нә дейәр? Бу олмазмы мәнә ар?..
Кединиз...—дейә Набат дүзәлир өз йолуна.
Сейфи һейрәт ичиндә бахыб архадан она
Дөнүр кери... гәлбини алыр минбир дүшүнчә.
Дүшүнүр севкисини, дүшүнүр инчә-инчә:
«Бу гыз чох вүгарлыдыр, о әйилмәз бирчә дәм.
Һәр шейдән үстүн тутур мәнлийини бу өткәм».

***

Дәзкаһлар чыггылдайыр, курултуларла енә.
Дикиб һәр кәс башыны мәшғулдур өз ишинә.
Салыр шүшә чәнкәлә Набат ипәк саплары.
Позулмуш «дүня[1]»ларда. һөрүр тәк-тәк саплары
Каһ да бошалан йүкү ачыр өз дәмириндән.
Узаг олмасын дейә, саплар бири-бириндән.
Набат көзү учуйла бахыр «рәгибә» сары,
Әлван арзулары тәк кечән әлван саплары
Топлайынча ханада дүшүр онлар саһмана.
Арзулар бағчасыдыр әлван саплы бу хана.
Дәзкаһын бир учундан чыхынча һазыр ипәк
Набат бахыр онлара үрәйиндә бир диләк.
Чох көзәл көйнәк олар оғланчун бу ипәкдән
Нечә тутар Сейфини чөһрайы рәнк көрәсән?
Чох көзәл... рәнкини дә ачар...
Көрүр бу анда
Сейфинин көзләрини сапларын арасында.
О дәзкаһа бағламыш бүтүн әмәлләрини.
Элә чәлд ишләйир ки, һеч онун әлләрини

[1] Дүня—21 сап бирликдә „дүня" адланыр.

Сапларын арасында көрмәк олмур бирчә ан,
Күлдән-күлә сычраян
Ағ кәпәнәкләр кими учур, учур әлләри,
Чичәкләрин үстүнә шәфәг дүшәндән бәри.
Бирдән саплар гырылыб, долашыр бир-биринә
Ян саплары узаныр ана сапын еринә.
Тез машыны сахлайыр телләр кәрилсин дейә.
Мәлул-мәлул о бахыр хараб олмуш һиссәйә,
Гәлбинин көйләринә енир булут, енир чән.
Парылдайыр көзләри ани шимшәклә бирдән
Одур, одур Сүразәр санки дөнмүш аслана;
Даянмадан ишләйир, һеч бахмадан бир яна,
Һеч мәнә дә бахмайыр. Бу күн өтәр о мәни
Бу фикирлә Набатым сүзәркән «рәгибини»
Көрүр дурмуш өнүндә Сейфи...
— Харабмы олмуш?
— Бәли, мән йорулмадым, дейәсән, бу йорулмуш...
— Дүзәлдәрәм бу саат.—Дейә Сейфи бир анда
Сөкдү кичик һиссәни...
Иш тамам гуртаранда
Набат күлдү... чәкилди үрәйиндән булут, чән
Кечди дәзкаһ башына «сағ ол» дейә, енидән.
— Тохтасана бир, ай гыз!
— Нә дейирсән?
— Сән дүнән
Нийә мәни гоймадын өтүрмәйә... ахы мән...
— Инди сөһбәт вахтыдыр? инсафын олсун бары,
Бир күчлә чатдырырам көрүрсән ки, саплары
Горхурам бу күн өтә Сүразәр... кет, сән аллаһ,
Ахы, бир сәбрин олсун....
— Бәли, демәк бу дәзкаһ
Күнаһкардыр. Саплары тез кәтирир долагдан.
Сәнин дә сөһбәт үчүн вахтын олмур бирчә ан.
Дүзәлдәрәм мән ону,—дейә күлүмсәйәрәк,
Узаглашыр Набатдан. Гуш тәк чырпыныр үрәк.

— Бу күн лап гиямәт еләйиб Набат
Йүз метр!.. Планы өдәйиб гат-гат.

Доғрусу бу гызда айры һәвәс вар.
— Ай гыз, бу мө'чүздүр.
— Доғрусу, гызлар,
Билмирәм нә чүрә олубдур бу да.
Анчаг дүнән кечә көрдүм юхуда
Ярышда апарыб мәни Сүразәр.
Яманча пәрт олдум, одур ки, сәһәр
Айры чүр ишләдим удузмамагчун.
Доғрусу яманча горхурдум бу күн...
— Эй, каш о юхудан көрәйдик биз дә,
Пахыллыг доғайды үрәйимиздә.
Даян... сәни бир күн һайлыярам мән...
Гызлар күлүшәрәк чыхырлар сехдән.

***

Набат етишинчә эвә көрүр ки,
Күбра онлардадыр...
— Хош кәлдин ай гыз
— Сағ ол! эшитдим ки, кедирсән сабаһ
— Элэдир кедирәм.
— Эһ, ай вәфасыз,
Бәс мәни көрмәмиш кедирсән?
— Йох-йох.
Сабаһ кәләчәкдим...
— Союгсан, союг.
— Бәс, ай гыз, гардашын Әнвәр һардадыр?
— Әнвәри билмирсән? Көйләрдә... дүнән
Енидән көйләрә галхды, Бакидән
Бизә хош хәбәрләр кәтирмәк үчүн.
Анчаг дөнмәлийди һесабла бу күн.
Йәгин, һава писдир о тәрәфләрдә.
Чох аз көрәчәксән ону сән ердә.
Көйләрчин доғулуб элә бил ки, бу.
— Үрәйим сыхылыр, Набат, доғрусу
Кәл, кедәк киноя...
— Йәгин Әнвәрин
Эвдә олмамасы сыхды гәлбини.
— Йох, йох.

— Гынамырам мән һеч дә сәни
Дейирсән кедәк дә...
Бир аздан сонра
Гол-гола кедирләр Набатла Күбра.

Иш вахты гуртарыр. Бир-бир фәһләләр
Дөнүр эвләринә... Сейфи мүкәддәр.
О дөнмәк истәмир өз мәнзилинә
Ишләмәк, чалышмаг истәйир енә.
О, тәзәчә тапмыш ишин йөнүнү.
Бурда ахшамадәк бүтүн күнүнү,
Дәзкаһын башында кечирир һәр күн.
Бөйүк бир ләззәтдир бу онун үчүн.
Яратмаг эшгилә янан бир инсан,
Айрылмаг истәрми өз дәзкаһындан?
Бир анлыг көнүлсүз о айрылса да
Гәлбини өзүйлә апара билмәз.
Киминлә данышса, һарая кетсә
Көзүнүн өнүндән дәзкаһ чәкилмәз.
Сыхыр үрәйини бир өзкә гүссә...
Эвдә тәк галараг дүшүнмәкдәнсә
Ишләмәк, ишләмәк яхшыдыр дейә
Әзиб дәмирләри атыр күрәйә.
Айрылмаг истәмир ишдән бир ан да.
Һәмишә дағларда гаш гараланда
Онун да гәлбинә чөкүр гаранлыг.
Одлу дүшүнчәләр ону бир анлыг
Сакит бурахмайыр... лакин әлачсыз
Дөнүр мәнзилинә. Бурада ялныз
Союг дүшүнчәләр олур һәмдәми,
Исидир гәлбини хәял әләми.
Өтүр чунду гушу енә узагда.
Яндырыр чырағы... күлүр отагда
Киш чайын көйәрчин ләпәчикләри,
Эвдән сүркүн олур кечәнин шәри.
Охуюр радио гоншу отагда.
Бир көнүл бүлбүлү өтүр будағда:

Де нә гәдәр чәким интизарыны?
Бу һичран гышынын баһары йохму?
Йол ача билмәдим сәнин гәлбинә
О көзәл диярын ачары йохму?
Дейирсән «сәбр элә» көзүн гурбаны,
Мәндә сәбр этмәйә дәянәт һаны?
Сәнсиз ил санырам һәр етән аны.
Сәбр дәрясынын кәнары йохму?

***

...«Онун гүрурундан, тәкәббүрүндән
Өзүм дә билмәдән титрәйирәм мән.
Даянмаг олармы көнүл әсәндә,
Сабаһ о Бакийә кедәчәк... мән дә
Кедәйдим... аһ, Баки дүшдү ядыма,
Одур гүввәт верән гол-ганадыма.
Орда чичәкләнмиш мәним һәр арзум.
Кәлсәнәм анама бир мәктуб язым?!»
Дейә әйләшәрәк миз архасына
Языр... һәвәс кәлир яздыгча она.
Мәктубу гуртарыр, дурур бир гәдәр.
Тәзә бир ниййәтлә нурланыр көзләр.
Ондан да язмағым вермәзми файда?
Бәлкә бир мәсләһәт язды анам да.
«... Ана! Бу мәктубу кәтирән гыза
Яхшы бах, яманча севирәм ону,
Анчаг о бир чаваб вермәмиш һәлә.
Бир әсир эйләмиш эшгә оғлуну».
О, зәрфи бағлайыб гоюр чибинә,
Ширин хәялләра гапылыр енә.
Дүшүнүр... бир аздан галхыб аяға
Дейир өз-өзүнә:—кедим бир бағa,
Ағачлар алтында кәзим-долашым.
Нәдәнсә яманча ағрайыр башым...

Сейфи яваш-яваш йола дүзәлир
Бир аздан Фүзули бағына кәлир.

Бир гәдәр үрәйи ачылыр онун.
Дөнмәк истәйиркән көрүр кинонун
Гаршысында бөйүк бир мә'рәкә вар.
Билетчин нөвбәйә дурмуш чаванлар.
— Һансы кино кедир?
— «Һәгиги инсан».
— Аһа... көзләйирдим мән буну чохдан
Дейә билет алыб кирир ичәри.
Ени бир һәвәслә яныр көзләри.

***

Кино... тәйярәләр учур экранда
Сейфинин көзләри күлүр бир анда
Одур, учур шаһин... лакин бир аздан
Сүрүнүр гар үстә ганадлы инсан.
Сүрүнүр яралы, көрпә гуш кими,
Сүрүнүр көксүндән вурулмуш кими.
Һавасыз, көйләрсиз гуш яшармы һеч?
Һейһат... ярашармы, ярашармы һеч
Ганадлы инсана ердә сүрүнмәк?!
Алышыр Сейфинин көксүндә үрәк.
Дүшдүкчә ядына учдуғу күнләр
Көйдә булутлары гучдуғу күнләр.
Гырышлар дүйүлүр алнында гат-гат.

***

Пилоту экранда көрүнчә Набат
Аныр гардашыны, Сейфини аныр
Кизли бир дуйғуйла гәлби одланыр.
Одур, бах, гычыны кәсдиләр онун
О көйләр тәрланы, көйләр оғлунун.
Додағы алтында пычылдайыр о.
«Мән белә билмәздим өмрүн сонуну.
Итирдим, итирдим өз шәһпәрими.
Күнләрлә гар үстә мән илан кими
Учмаг арзусилә сүрүндүм. Анчаг

Нэ билим ки, сонум белә олачаг».
Лакин о енидән дөнүр һәята,
Исти чарпайыда о ята-ята
Ганадсыз учмағы мәшг эдир һәр күн.
Кейдийи тахта гыч бу икид үчүн
Һәгиги гыч олур... енидән ону
Алыр өз гойнуна булутлу көйләр.
О енә дә учур. Көрүнчә буну
Сейфинин гәлбиндә доғур ал сәһәр
Дүшүнүр: бәс мәндә бу чүр'әт һаны?
Белә олмалыдыр совет инсаны!
Инсан галиб ҝәлир ялныз һүнәрлә,
Бу көзәл, бу али дүшүнчәләрлә
О кедир, гәлбиндә ени бир һәвәс.
Бирдән эшидәрәк о таныш бир сәс
Даяныр...
— Афәрин, әсл инсандыр.
— Көр бизим бу заман нечә замандыр!..
— Дейирәм, ай Күбра, о оғлан кими
Бизим бу Сейфи дә уча биләрми?
Онун бу эшгини һисс этмишәм мән
Көйләри чох севир о да... бу сөздән
Сейфинин гәлбиндә күлләр ачылды.
Элә бил гәлбинә нурлар сачылды.
Кетди онлар илә гара-ба-гара,
Өтүрдү кизличә. Анчаг онлара
Гыз утанар дейә яхынлашмады,
Достлар, бунун да вар өзкә бир дады.

***

— Набат кедирсәнми?
— Бәли.
— Яхшы йол.
Истидән, союгдан эһтиятлы ол.
Баки һавасына инанмаг олмаз.
Орда сечилмәйир гышдан баһар, яз.

Енә әзиз Баки дүшдү ядыма.
Одур һәят верән һәр мурадыма.
Мән севирәм ону өз анам кими,
Баки тәбиәти, Баки иглими
Мәни бала кими бөйүтдүйүндән
Онун иглимини көтүрмүшәм мән.
Бакинин баһары, човғунлу гары,
Дәли күләкләри, сәрт туфанлары,
Чошғун кечәләри, чошғун сәһәри,
Хәзәрин далғалы тәлатүмләри
Яшайыр инан ки, руһумда мәним.
Санки гәлбимдәдир әзиз вәтәним.
— Онунчунму белә дәлиганлысан?
— Мәнчә белә олса яхшыдыр инсан.
Чошуб дашмаянын арзусу олмаз.
Сүкут...
— Сизә зәһмәт олса да бир аз
Буну—бу мәктубу чатдырын бизә.
— Баш үстә, һәләлик...
— Уғурлар ола.
Машын сәсләнәрәк дүзәлир йола.

***

Гурултай... салонда бөйүк тәм-тәраг.
Һәр кәсин көзүндә мин һисс, мин мараг.
Әйләшиб сәссизчә динләйир. Бир-бир
Сөз алыб данышыр нүмайәндәләр...
Арзулар күл ачыр додагларында.
Алгыш сәдалары галхыр бир анда
Ады чәкиләндә бөйүк рәһбәрин.
Салон курулдайыр, һәр кәс өз дәрин
Һиссини билдириб галхыр аяға,
Санки гушлар верир додаг-додаға.
Одур, бах, күрсүдән данышыр Набат.
О ени вә'дәләр верир өлкәйә
Өз элим, өз бачым, өз гардашларым
Байрам либасына бүрүнсүн дейә.

Ким билир нечәси бурдакыларын
Онун тохудуғу парчадан кеймиш.
Бачым, бәхтәвәрсән, о зәр парчалар
Ән әввәлчә сәнин әлинә дәймиш.
Яратмаг! Нә гәдәр ширидир бу сөз
Ондадыр көйләрә галхыб учалмаг,
Нә гәдәр ширидир яратдығынын
Узагдан бахараг сейринә далмаг!
Бу гәһрәман гызлар сындырды чохдан.
Кечмишин о чүрүк э'тигадыны.
Вурғун яхшы демиш: инди ким гояр
Өз тәзә гызына Бәсти адыны.
Даныш, әзиз бачым, даныш чәкинмә.
Нәдир тәләбләрин ач сөйлә бир-бир.
Бояли сөзләри сән танымырсан,
Һәр сөзүн, һәр кәлмән үрәкдән кәлир!
Үч саат, беш саат нитг дейәнләр
Дуймаз сәндә олан сәмимиййәти.
Садә сөзләринә додаг бүзәнләр,
Гәлбиндә чырпынан тәмиз ниййәти,
Дәрк эдиб анламаз, даныш, сән даныш!
Кәләчәк арзундан, ишиндән даныш!
Рус, күрчү, белорус, татар, эрмәни
Бурда мин марагла динләйир сәни.
Өз ана дилиндә данышдыгча сән
Күлүр ана юрдун чөлү-чәмәни.
Сәнин сөзләрини изләйән һәр кәс
Өз ана дилиндә эшидир сәни.
Даныш һеч чәкинмә бу салон, бу ер,
Хитабәт күрсүсү өзүнүнкүдүр.
Нә сәни бурада һәдәләйән вар
Нә дә аддымыны гочулар күдүр.

***

Тәнәффүс, этрафда ики-бир- үч-бир,
Гол-гола верәрәк чаванлар кәзир.

Һәят күлүмсәйир кәнчлик сәсиндән,
Онларын гәлб ачан гәһгәһәсиндән,
Титрәйир, титрәйир мәрмәр сүтунлар.
Биләсиниз нә гәдәр хошбәхтдир онлар.
Чүнки булбул кими өтүр һәр үрәк.
Набат мүһәччәрә дирсәкләнәрәк
Сейр эдир кәзишән бу чаванлары.
Нә ширин дир өмрүн бу хош анлары!
О индичә дуюр өзүнү ялныз.
Будур шых кейимли бир талибә гыз
Набатын өнүндән өтүр... бир анда
Онун кур сачлары далғалананда
Санки әтир сәпир о яндан бәри
Нуха дағларынын тәр чичәкләри.
Башында улдузлар яныр көй, сары.
Онун әйниндәки ипәк палтары
Үлкү тәк белини кип гучагламыш,
Белинә шүшәдән кәмәр бағламыш.
Набат күлүмсәйир, севинчдән бу дәм.
Күлүнчә көзүндә, бу көзәл аләм
Бир гүрур, бир һәвәс ояныр онда.
Нә гәдәр көзәлмиш, аһ, доғрудан да
Онун тохудуғу ипәк парчалар!
Онун тохудуғу ипәк ярашығы вар
О көзәл дилбәрин әйниндә... Бу ан
Башга бир чаван гыз өтүр янындан.
Онун палтары да будур, будур, бах
Һәмин парчадандыр өзүдүр. Анчаг
Һеч көзәл көрүнмүр нәдән, нәдән бәс
Бу гызын әйниндә?

Бу дейил әбәс.

Анчаг өз вахтында ширин олур бар,
Бәдәни тутмаян о узун палтар
Бизим зөвгүмүзү охшамыр бу күн.
Артыг ябанчыдыр о бизим үчүн.
Енә өз көкүндән айрылмамышдыр.
Заман дәйишсә дә ону нә гәдәр.

Енә үрәкләрдә галыр изләри
Арадан кетсә дә пуч әгидәләр.
О узун балаглар, узун әтәкләр
Әсрә ярашмайыр, чох күлмәлидир.
Мәндән инчимәсин өз анам, онлар
Дөврүн гайчысыйла кәсилмәлидир.
Дөврүн өз тәләби, өз адәти вар.
Узун балагларын әзиййәти вар

Сәнә әзиз бачым иш заманында.
Әсрин тәләбини гайнат ганында!
Тәзә һиссләрлә янмалыйыг биз,
Узун балаглара нәнәләримиз
Силәрди өз ганлы көз яшларыны.

***

Гурултай гуртарыр кечә тән яры.
Чөлдәки машынлар алыб гызлары
Апарыр бир баша меһманханая.
Һәр одлу үрәкдә бир ени дүня.
Чатынча, онлары дәмир лифт о дәм
Галдырыр юхары. Бурада аләм
Башгадыр. Пәрдәли түллү отаглар...
Бир заманлар анчаг «йүксәк» гонаглар
Бурда кечәләрди. Инди исә, бах бир
Ади бир фәһлә гыз бурда динчәлир.

## IV

Набат йохдур дейә, Сейфи дә бир ан
Гәлбиндә изтираб, сүстлүк дуймадан,
Чалышыр, чалышыр ахшама гәдәр,
Эвинә кетмәйир бә'зән кечәләр.
Кечәли күндүзлү фикирләшдийи,
Аләтин эшгилә яныр, яхылыр.
Бу дәмир әсринин дәмир эвлады,
Дилсиз дәмирләрә гәләбә чалыр.

***

Сейфи дүзәлтдийи ени аләти,
Бу күн севинчләрлә гошду дәзкаһа.
Ишләди... Бу аләт өзү адамсыз,
Сапларьі ханая бағлайыр даһа.
Күлдү, Сейфинин дә арзусу күлдү,
Элә бил көнлүнә шәфәг төкүлдү.
Чох хошуна кәлди баш мүһәндисин,
Бу ени ихтира... Ону һәмин күн,
Мүдир дә чағырыб өпдү алнындан.
Деди:—етишдирди сәни бу девран!
Гызлар тәбрик этди ону үрәкдән.
— Сағ ол, Сейфи гардаш, чох сағ ол ки, сән
Бу әл үсулуну дағыдыб гырдын,
Бизим ишимизи асанлашдырдын!
Артыг сән дәзкаһын олдун һакими.
Һәлә Набат билмир, тез кәлән кими
Ону мүждәләмәк лазымдыр әввәл.
Дәзкаһы көрүнчә галачаг мә'тәл.

***

Сейфи хәстәләнир гәфләтән бир күн,
Йығылыр башына достлары бир-бир.
— Бәлкә союг дәйиб.
— Йох-йох сәнинчин
Бу гәдәр чалышмаг асанмы кәлир?
Һәлә ишә чыхма, һеч бир шей олмаз.
Ят, динчәл эвиндә, раһатлан бир аз.
— Бу күн ики күндүр ишә кетмирәм.
Сыхыр үрәйими кизли бир әләм.
Яман дарыхырам...
— Һеч дарыхма сән.
Бу күн дә Набатын кәлди Бакидән.
— Доғрудан?... лап көзәл... нә яхшы олду,
Элә бил Сейфинин рәнки дурулду.
— Яманча дүзәлтди бу хәбәр сәни.
Бу хәбәр йәгин ки, дирилдәр сәни.

Дейә йолдашлары күлүшүр...
— Даһа.
Биз кедәк. Тезликлә тапасан шәфа!
— Сағ олун, вар олсун аягларыныз.
Кедирләр... Хәстәмиз галынча ялгыз,
Дүшүнүр, дүшүнүр өтән күнләри.
Бирдән Сәлим баба кирир ичәри.
— Әми, хош кәлдиниз!..
— Сағ олун, нә вар,
Бу нә ишдир балам, олмасын азар.
Хәстәлик көзләмәк олармы сәндән?
Чохдан хәбәрдарам әмәлләриндән.
Сағ ол, гочагсанмыш, афәрин!—дейә,
Бир лимон чыхарыб верир Сейфийә.
— Сағ олун, әмичан.
— Ийлә лимону.
Шәфа кәтирмишәм сәнә мән ону.
Тез сағал, башланыр, енә той-дүйүн.
Кәлдим сәнә дейәм, о бириси күн
Нишан мәчлисидир бизим Күбранын.
Кәләрсән... Сәнин дә гайнасын ганын.
Сән дә бир һазырлаш вахтындыр даһа,
Болдур газанчын да шүкүр аллаһа.
— Яманча сызлады әмичан, ярам.
— Билирәм, билирәм мән хәбәрдарам.
— Нәдән?
— Эшитмишәм... Сейфи дарыхма.
Сәбр элә, сәбр элә, гәлбини сыхма.
Бир аз гыз тайфасы шылтаг олмаса,
Онун нә ләззәти ай оғул?..
— Аһа...
Демәк сиз һәр шейдән хәбәрдарсыныз.
Бәс нечә?.. бәс нечә?.. Оғул, мән ялныз
Өләчәйим күнү билмирәм... йохса,
Бунлара нә вар ки?.. Шылтаг олмаса
Гыз өз гиймәтини билмәз... Чәкмә гәм...
— Ахы мән нә гәдәр сәбр этмәлийәм?
—Сәбрлә һалва олар, эй гора, сәндән.
Бәсләсән атлас олар тут ярпағындан.

Сейфи күлүмсүндү..
— Күлмә, күлмә сән.
Тез-кеч сөзләримә һагг верәчәксән.
Һәлә бәркимәмиш бу ишдә чанын.
— Яхшы, нишанлысы кимдир Күбранын?
— Сизин бу Набатын гардашы.
— Паһо...
Бу нә яхшы олду... Бәс һардайды о?..
— Ордуда, кәлдийи чохмуш бир илдән,
Өзләри тапышыб, танымырдым мән.
— Гоша гарысынлар, мүбарәк олсун.
— Сағ ол, үрәйимиз нәшәйлә долсун.

***

Айылынча Сейфи юхудан сәһәр
Чанында раһәтлик дуюр бир гәдәр.
Галхыб ятағындан кейинир... Она
Тәзә бир шей кими кәлир бу һәят.
Инаныр тәзәчә доғулдуғуна.
Бала гушлар кими ачыр гол-ганат,
Нә гәдәр шириндир доғрудан һәят!..
Чанын чөвһәридир зәһмәт һәр заман.
Чаны зәһмәтилә бәркийән инсан,
Яшая биләрми ишсиз, эмәксиз?
Онун әлләриндә ачылан һәр из,
Бир ширин зәһмәтин нишанәсидир.
Гулағында вуран чәкич сәсидир.
Бахыб әлләринә тутулур бир аз.
— «Йох-йох! Бу гәдәр дә назланмаг олмаз.»
Дейәрәк дүшүнүр... үч күндән бәри
Онун дәмир тутан, дәмир әлләри,
Яманча юмшалмыш... «Бу нәдир мән дә
Памбуға дөнүрәм хәстәләнәндә.
Зәһмәтсиз чүчәйә дөнәрмиш инсан.
Бәсдир, кетмәлийәм ишә сабаһдан.»
Гайдадыр һәмишә зәһмәт чәкәнин
Чаны полад кими әйилмәз олур.

Ипәк чарпайыда назлананларын,
Рәнки гүруб кими саралыр, солур.
Һеч пар-пар янармы зәһмәтсиз ораг?
Дәмирә, күрәйә бәнзәдир анчаг,
Көрдүйү һәр шейи, Сейфи, һәр шейи!
Һисси, дүшүнчәси, гәлби, истәйи,
Онлара бағлыдыр, чүнки онлара
Дүшүнүр.... Бир гәдәр кечир... Бу ара
Гапы таггылдайыр...
— Олармы?
— Бәли.
Набат Сүразәрлә кирир ичәри.
— Гызлар, хош кәлдиниз!
— Сағ ол, мән дүнән
Кәлиб эшитдим ки, хәстәләнмисән.
Бу күн истираһәт күнүдүр дейә
Кәлдик ки, баш чәкәк тәзә хәстәйә.
Бәс инди нечәсән?
— Сағ олуң, гызлар!
— Ананы да көрдүм.. өзүнсән ки вар.
Бағлама да верди сәнә, будур бах.
— Лап яхшы, вер бәри бу саат ачаг.
— Йох-йох! гоюн галсын.
— Әши вер бәри
Соютмағ олармы кәлмишкән ери...
Дейә Сейфи ачыр саплары...
— Дүнән.
Эшитдим дәзкаһы лап дүзәлтмисән.
Һәлә көрмәмишәм. Анчаг сабаһдан,
Башлайырам ишә...
Элә бу заман,
Ачылыр бағлама...
Сәрилир ерә.
Донлуг ипәк парча....
Бирдән көзләрә
Бир һейрәт пәрдәси энир... Бир анда
Сейфи бағламаны йығышдыранда,

Бир кағыз сәсләниб гатдан сүрүшүр.
Кағызын ичиндән бир үзүк дүшүр...
Ағарыр, Сейфинин рәнки ағарыр.
Нәш'әли гәлбини бир булут сарыр.
Тез ердән көтүрүб кағызы о дәм
Охуюр явашча гәлбиндә әләм:
«Оғул, чох бәйәндик бу кәлән гызы.
Ағыллы ушаға охшайыр... дүзү
Көзәллийә уйма, вурул камала.
Чох да вачиб дейил, бир дә. ай бала.
Бизим севмәйимиз, бәйәнмәйимиз.
Мане оларыгмы хейир ишә биз?!
Лап бабдыр, уйғундур оғул, өзүнә.
Бәлкә мән дә кәлдим бир нечә күнә.
Достларын эвләнир. Сән галма дала.
Яздығын о бағбан—Сәлим бабайла,
Сиз верин үзүйү, биз алгышларыг.
Пайыз гуртаранда тоя башларыг.»
Башыны галдырчаг Сейфи юхары,
Көрдү Набат кедир гапыя сары.
— Даянын!
— Нә үчүн? Кетмәлийик биз.
Кедирик һәләлик сағ ол, худафиз.
— Набат, кедәрсиниз, даян бир гәдәр!
Ай гыз, бир сәбр элә, дейә Сүразәр
Достуну гайтармаг истәйир... Анчаг,
Мүмкүнмү? Мүмкүнмү ону гайтармаг?!

***

Сейфи тәк галынча сыхылды гәлби,
Бир һәмдәм кәсилди дүшүнчәләрә.
— Йох, йох! Нечә олса сабаһ мән ону
Баша салмалыям... Бир дә... бир кәрә
Я буну дүзмәли, я да позмалы!
Йохса, пис олачаг бу ишин далы.

***

Дүзүлмүш ян-яна дәмир дәзкаһлар
Одлу бир шеирин мисралары тәк.

Һәр дәзкаһ башында бир гәһрәман гыз
Верир дәзкаһлара һүснүйлә бәзәк.
Ярышыр енә дә гызлар... бу заман,
Сейфи бойланараг гаршы гапыдан,
Кәлир яваш-яваш Набата сары.
Көзүндә алышыр саф дуйғулары.
Дүшүнүр: О инди йәгин бекардыр.
Сөһбәт этмәйә дә бол вахты вардыр.
Ихтира ишини асанлашдырмыш.
Дүнәнки әһвалат гәлбини гырмыш.
Йәгин ки, әлимдән һирслидир яман.
Инди бачардыгча сакит, меһрибан,
Давраныб гәлбини әлә алмалы,
Йохса яхшы олмаз бу ишин далы.

— Набат!

Сүкут...

— Набат!
— Бир сөзүн вармы?
— Әлбәттә...
— Иш вахты сөһбәт олармы?
— Инди ки, асандыр ишин... мәнә бах.
— Йох, мәни сөйләтмә, долашар долаг.
Ахы, дөрд дәзкаһа бахырам инди.
Эшидинчә буну Сейфи диксинди.
— Паһо... Доғрудан да беләймиш... Сәнә
Сөзүм йохдур даһа... һеч әлләринә
Баягдан бахмырам. Афәрин Набат!
Һалалдыр, һалалдыр сәнә бу һәят!
Дейиб узаглашыр Набатдан... Ону
Башга дүшүнчәләр алыр гойнуна.
Онун көзләриндә артыг бу андан
Бүрүнүр бу аләм өзкә бир дона.
Беләдир, әзәлдән бизим инсанлар
Бекар даянмагдан хошланмаз онлар.
Чүнки Набат билир онун һәр аны,
Бу күн бәзәндирир бир кәнч инсаны.
Удачаг, бу арзу вар исә кимдә.
Кечди дөрд дәзкаһа Сүразәрим дә,

Набаты габагда көрүнчә дәрһал.
Башга гызлары да чошдурду бу һал.
Онлар да кечдиләр ики дәзкаһа.
Тәк дәзкаһа бахан галмады даһа.

## V

Артыг яваш-яваш күнләр гысалыр.
Тәбиәт енидән юхуя далыр.
Саралыр о атлас яшыл будаглар,
Өз той либасыны союнур дағлар.
Гушлар ганатланыб көчүр узаға,
Бир гәриблик чөкүр һәр бағча-бағa.
Яғышлар башланыр... чиләнир көвһәр
Отларын үстүнә... Чөлләр, мешәләр
Чәкир өз үстүнә булутдан дуваг.
Әсир яваш-яваш уғулдаяраг,
Гышын илк чарчысы союг күләкләр.
Артыг гыров гоюр отлар, чичәкләр.
Тәбиәт данышыр бир өзкә дилдә.
Архларын кәнары долур хәзәллә.
Союнур өз атлас, той либасыны
Сәлим бабанын да көзәл бағчасы.
Солса да ярпаглар, солса да күлләр,
Солармы инсанын әмәл бағчасы?
Хейир!.. О бағчанын тут ярпаглары,
Ким дейир солмушдур?.. Эй достум, бары,
Әйнинә кейдийин көйнәйә бах бир.
О көйнәк бағбанын әмәлләридир!

Күбра, тохудуғу калағайларын
Зәриф һәшийәсинә һей нарын-нарын
Чәкди атасынын күл ләкләрини,
Сары лимонунун чичәкләрини.
Будур бир бағбанын иши, әмәли,
Һәр заман башларда кәзир тач кими.
Әлван ипәкләрдә, бизим көзәлләр,
Кәзинчә өнүндә бир турач кими.

Ачылыр үрәйи Сәлим бабанын.
Күлүр хош диләйи Сәлим бабанын.
Бу күн онун еви тәмтәраглыдыр,
Нишан мәчлисидир. Күлүр гонаглар.
О юхары башда әйләшән кәнчин,
Гәлбиндә мин севинч, мин тәнтәнә вар.
Бирдән Сейфи кирир ичәри... Һамы
Оңу көзләйирди баягдан бәри
Сейфини көрүнчә һәмин о кәнчин,
Һейрәтдән од сачыр шаһин көзләри,
— Бу сәнсән Сейфи чан?
— Мәнәм, ай Әнвәр!
Өпүшүр дүнәнки тәйярәчиләр.
— Демәк, Сейфи сәнсән... ишә бах ишә.
Бачым сәндән дейир евдә һәмишә.
— Демәк парашутчун ипәк тохуян
Бачын Набат имиш?
— Бәли, о заман
Сәнә Нухамызы тә'рифләйәрдим.
Сейфи чан! о вахтлар ким дейәрди, ким,
Биз бир дә Нухада көрүшәчәйик.
Нишан мәчлисимдә көзләнилмәдән...
Сән бир тәсадүфә, тәсадүфә бах.
Буну дүшүнмәздик нә сән, нә дә мән.
Әйләшир гол боюн достлар ян-яна.
Бөйүк бир ләззәтдир бу һал дуяна.
Дүнәнки одларын, фыртыналарын
Ичиндән чыхмышдыр бу достлуг, үлфәт.
Одлар, аловлардан яранмыш илкин,
Ән бөйүк, ән али, ән саф мәһәббәт!
Ешгин, мәһәббәтин оддур анасы.
Атәшлә йоғрулур гәлбин севдасы.
Севкисиз арзу да яранмаз әсла!
Дәмир дә дәмирә говушур одла.
Одларын ичиндә, яранан достлуг
Әйилмәз поладдан чох мөһкәм олур.
Хилгәти саф олан тәмиз гызыл тәк

Нә солур, нәдә ки рәнки позулур.
— Ай гыз, бир бура кәл...
Дейәрәк Әнвәр
Чағырыр Набаты—Алышыр көзләр
— Уганма, гәлбини ачачағам мән.
Өзүн билирсән ки, мәним әзәлдән
Өртүлү ишләрлә һеч олмаз арам.
Онсуз да һәр шейдән мән хәбәрдарам.
Сәлим баба мәнә данышмыш бүтүн...
Нишан мәчлисимдә сиз дә, бах, бу күн
Олдунуз адахлы..
Гызарыр Набат,
Сейфинин көзүндә күлүр той-бусат.
— Сейфинин адыны эвимиздә мән

Һәр күн эшидирдим... Нә билим ки, бу
Мәним өз достумдур. Кечиб иш-ишдән...
— Амма лап еринә дүшдү, доғрусу,
Дейиб Сәлим баба күлдү.
Бу ара
Сейфи көзләрини дикиб байыра
Деди:
— Сәлим баба, саралыб бағын,
Һаны будагларда күлән ярпағын,
Сәлим баба күлүб деди:—ай оғул,
Гой ярпаг төкүлсүн, тәки, сән сағ ол.
Сәнә гурбан олсун бағым, күлүшәним,
Анчаг һеч унутма, күлмүсән мәним
Сән ики сөзүмә. Бири кәлән күн,
Бир дә ки... нә дейим билирсән өзүн.
Дейирсән «бәс һаны яшыл ярпаглар?»
Будур бу гызларын кейдийи палтар,

Һәмин ярпагдандыр, сән биринчи күн
Элә бах бу сөзә—буна күлмүшдүн.
Сәнин о күлүшүн яман күлүшдү,
Мәним сөзләрим дә еринә дүшдү.
Сән хәстә ятырдын, дедим «чәкмә гәм,
Чатарсан арзуна» сән енә бу дәм

Күлдүн. Мәнсә дедим: оғул сәбр elə,
Инсан арзусуна чатар сәбр илә.
Инди өз камына етишдин сән дә
Мәним сөзләримә демәк күләндә
Сән һеч нә билмирдин...
Күлдү гонаглар.
Бу шән гәһгәһәни әкс этди дағлар.
Сәлим баба исә бу дәм чибиндән
Чыхарыб үзүйү дейир:—Гызым, сән
Өзүн кәтирмисән Бакидән буну,
Билмәдән ичиндә нә олдуғуну.
Ал, гызым! көнлүнү бағла сән буна,
Өзүн өз әлинлә тах бармағына.
Енидән учалыр шән гәһгәһәләр,
Ачылыр һәр үздә күлкүн бир сәһәр.

## ЭПИЛОГ

Әйләшиб мизимин архасында мән
Яздым бу шеирими ахшамдан бәри.
Айылынча көрдүм гызыл күнәшин,
Дүшүб пәнчәрәмә илк шәфәгләри.
Ипәк күлләр ачан вараглар үстдә,
Ипәк түлләр кими күлүр шәфәгләр.
Мәнә Набатымдан хәбәр кәтирир.
Ганавус өртүклү гызыл үфүгләр.
Үрәйим бошалмыш. Гымышырам мән.
Бир гәдәр разыям бу күн өзүмдән.
Данышыр радио, данышыр аста.
Мүждәләр сачылыр онун сәсиндән.
Хош хәбәрләр верир о һәр күн мәнә,
Бу кениш юрдумун һәр кушәсиндән.
О ени мүждәли бир хәбәр верир:
«Кечмиш беш дәзкаһа бу күндән Набат».
Эшидинчә буну дурухурам мән.
Ачиз гәләмимә бахырам мат-мат.
Утандым, доғрусу өзүм-өзүмдән

Заманла сәсләшә билмәмишәм мән.
Заманла сәсләшмәз вахтындан әввәл
Көзәл кәләчәйи дуймаян үрәк
Илдырым әсринә, илдырым кими,
Сүр'әтлә шығыян бир гәләм кәрәк!
Дедим өз-өзүмә айыбдыр мәнә.
Әкәр бу язымы охуса онлар.
Нә гәдәр хошбәхтдир гәһрәманындан
Керийә галмаян гадир сәнәткар!

10 декабр, 1948—10 март, 1949
Нуха—Баки.

## КИТАБЫН ИЧИНДӘКИЛӘР


Мәним достларым . . . . . . . . . . . . . . . . . . . . 4
Јашыл чәмән, ағач алты, бирдә ки, түнд чај . . . . . . . 6
Мирвари . . . . . . . . . . . . . . . . . . . . . . . 8
Хатирәләр . . . . . . . . . . . . . . . . . . . . . . 10
Сабаһыныз хејир олсун . . . . . . . . . . . . . . . . 12
Тәзә шәһәр . . . . . . . . . . . . . . . . . . . . . . 13
Сәнин тикдијин евдә . . . . . . . . . . . . . . . . . 15
Ағ сачлар . . . . . . . . . . . . . . . . . . . . . . 17
Көнүл баһары . . . . . . . . . . . . . . . . . . . . . 19
Мәктәб шеирләри (илк чығыр) . . . . . . . . . . . . . 21
Гызыл медал . . . . . . . . . . . . . . . . . . . . . 22
Илк дәрс . . . . . . . . . . . . . . . . . . . . . . . 23
Мәктәб јоллары . . . . . . . . . . . . . . . . . . . . 26
Тохучу гыз . . . . . . . . . . . . . . . . . . . . . . 28

Редактору Әhмәд Ҹәмил

Техники редактору **М. Кәримов**
Корректору **Г. Кәрим оғлу**

**Чапа имзаланмыш** 21/V-1949 ил. Чап листи 4,25. Нәшрийят листи 2,75. Бир чап листиндәки һәрфләрин сайы 25 880. ФГ 00525. Сифариш № 313. Тираж 5000.

**26-лар адына** Азәрнәшр мәтбәәси, „Китаб Сарайы", Бакы, Әли-Байрамов күчәси № 1.

Азәрбайчан ССР НС янында Полиграфия вә Нәшрийят ишләри идарәси.

**Bəxtiyar Vahabzadə**

# Mənim dostlarım

**(Azərbaycan Milli Kitabxanasının Qızıl fondundan)**


Nəşriyyat redaktoru: Xeyransa Abbasova

M.F.Axundov adına
Azərbaycan Milli Kitabxanası
Ünvan: AZ-1000 Bakı ş.,
Xaqani küç. 57;
E-mail: contact@anl.az;
URL: www.millikitabxana.az
Sifariş: № 02
Çapa imzalanmışdır: 13.02.2025
Tirajı: 500
Pulsuz

Mətbəənin direktoru: *Elman Qasımov*
Dizayner: *Azər Aydın*

Formatı 84x108 1/16. Həcmi 9 ç.v.
Sifariş № 22
"Zərdabi-Nəşr" MMC Nəşriyyat Poliqrafiya müəssisəsi
☎ iş (012) 498-79-62, mob. (050; 070) 344 76 01
e-mail: zerdabi_em@mail.ru

Бәхтијар Ваһабзадә

# Мәним достларым

БАКЫ — АЗӘРНӘШР — 1949